# “Binokl diplomatiyası” üçün əlavə müddət



*Ermənistan sülh istəmədiyindən Aİ-nin sərhəd müşahidəçilərinə ehtiyac duyur*

**Ermənistan Azərbaycanla sülhdən yayınır, manipulyasiyalara baş vurur. Bununla bağlı çoxsaylı misallar var. Ancaq baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçiləri özlərini elə aparırlar ki, sanki süddən çıxmış ağ qaşıqdırlar. Bu “bayquşlar” “sülh qaranquşları”na oxşamaq üçün ən müxtəlif vasitələrə əl atsalar da, məkrli niyyətlərini gizlədə bilmirlər. Məsələn, beynəlxalq instansiyalarda aktiv anti-Azərbaycan təbliğatı aparır, yaxud ermənipərəst dairələrin ölkəmizi ləkələmək yönümlü fəaliyyətlərinə dəstək göstərirlər.**

**(ardı 3-cü səhifədə)**




## “Odlar yurdu” bərpaolunan enerji məkanıdır



Səhifə ⇨ 9


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 235 (30639) 25 oktyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Çoxyönlü beynəlxalq siyasət Azərbaycana uğur qazandırır

## XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının ilk plenar iclası




## Bakı–İrəvan sülhü: Razılıq və iradə həm var, həm də yox



Səhifə ⇨ 3

# Müharibənin və “boşanma”nın cəzası

*Ermənistan üçün risk amili*

**Ermənistan baş nazirinin müavini Mher Qriqoryan bir neçə gün əvvəl Azərbaycanla sərhədlərin demarkasiyasına toxunaraq, bununla bağlı risklərin mövcudluğunu, müəyyən hissədən sonra sərhədlərin demarkasiyasının, ümumiyyətlə, mümkün olmaya biləcəyini deyib. Bu fikir müxalif kəsimin təmsilçilərində sərt reaksiya doğurub. Onlar ölkə parlamentində baş nazir Nikol Paşinyana mövzuya dair suallar yağdırıblar. Hökumət rəhbərinin cavabı isə qeyri-müəyyəndir. Nikol həyatın risksiz olmadığını vurğulayıb. Erməni baş nazirin risk təsəvvürünün üzərinə gələcəyik. Hələlik isə bir sıra məqamlardan söz açaq.**

**(ardı 4-cü səhifədə)**



## Gürcüstan Qərbin hədəfində



Səhifə ⇨ 4

# Qaçaq Nəbinin yurdu azad nəfəs alır

**44 günlük şanlı savaşda Hadrut, Cəbrayıl, Füzuli, Zəngilanın azad edilməsi ilə başa çatan növbəti parlaq qələbə 2020-ci ilin 25 oktyabrında, yəni düz 4 il əvvəl, Qubadlı istiqamətində qazanılıb. O gün Azərbaycanın hünərvər əsgər və zabitləri böyük şücaət göstərərək Qubadlı şəhərini və ətraf kəndləri düşməndən azad ediblər. Bu, əlbəttə, son dərəcə qürurverici bir hadisədir.**

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkib. Belə ki, Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra, təbii ki, növbəti istiqamət Qubadlı rayonu idi. Hərbi ekspertlər qeyd edirlər ki, dağların qoynunda yerləşən bu şəhərdə ermənilər güclü istehkamlar qurmuşdular. Yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Düşmən oradan müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə də Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi.

**(ardı 6-cı səhifədə)**







## Dünya Bankı Azərbaycanla bağlı qiymətləndirmə aparacaq

Səhifə ⇨ 8

## Azərbaycan Prezidentinin Rusiyaya səfəri

# XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının ilk plenar iclası

*Prezident İlham Əliyev toplantıda iştirak edib*



**Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının ilk plenar iclası keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün “Kazan Expo” Beynəlxalq Sərgi Mərkəzinə gəldi.**

**Əvvəlcə XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının nümayəndə heyətləri başçıları – iştirakçılar birgə foto çəkdirdilər.**

**Rusiya Prezidenti Vladimir Putin çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.**

**Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**




### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Vladimir Vladimiroviç!
Hörmətli həmkarlar!
Xanımlar və cənablar!

Hər şeydən əvvəl, dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim.

Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020–2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. “Şərq–Qərb” və “Şimal–Cənub” nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən, 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Vladimir Putin dedi:**

Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm. Çox sağ olun.

*

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən, 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

# Prezident İlham Əliyevin Ermənistanın Baş naziri ilə görüşü




**Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.**

Görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən, sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

***AZƏRTAC***

# Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Cevdet Yılmaza başsağlığı verib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 24-də Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaza başsağlığı məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Ə.Əsədov Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insan tələfatı və yaralananlar barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirib.

Azərbaycanın Baş naziri bu ağır faciə ilə əlaqədar Türkiyənin vitse-prezidentinə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, bütün yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

# Milli Məclis AP-nin qərəzli qətnaməsini rədd etdi



**Milli Məclis Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi “Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər” adlı qətnaməyə münasibətini xüsusi şərhlə bildirib.**

Açıqlamada qeyd edilir ki, özünü Avropa parlamentarizminin siması kimi təqdim edən bu təsisat qoca qitənin bütün problemlərini bir kənara qoyaraq, yenidən ölkəmizə qarşı hücuma keçib: “Avropa Parlamentinin Azərbaycan xalqının haqlı gözləntilərinə münasibətdə etinasızlığına artıq alışmışıq. Nəticə etibarilə, Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalı, şəhər və kəndlərimizin yer üzündən silinməsi, işğal olunmuş torpaqlarımızda və Ermənistan ərazisində xalqımızın tarixi, dini və mədəni irsinin kütləvi şəkildə dağıdılması və mənimsənilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan artıq soydaşımızın hüquqlarının tapdanması, onların uzun illər ərzində çəkdikləri iztirablar avropalı parlamentariləri heç vaxt maraqlandırmayıb”.

Şərhin davamında göstərilir ki, bu ermənipərəst qurum 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına icra etməsi ilə də barışa bilməyib: “ Lakin indi məlum olur ki, Avropa Parlamenti artıq öz anti-Azərbaycan xislətini bütün rəngarəngliyi ilə nümayiş etdirməyə qərar verib. Qətnamənin mətnindən də göründüyü kimi, ölkəmizə qarşı fəaliyyət göstərən müxtəlif maraq qruplarının istifadə etdikləri ayrı-ayrı mövzuların, təzyiq alətlərinin toplanaraq, bir sənəd formasında tərtib olunması məhz bunu deməyə əsas verir”.

Bildirilir ki, bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür. Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə açıq şəkildə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Əlləri Azərbaycan xalqının qanına bulaşmış, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin hərbi əsir kimi qələmə verilməsi isə, sadəcə, hiddət doğurur”.

Milli Məclisin Avropa Parlamentinin ölkəmiz əleyhinə yönəlmiş bu qətnaməsindən çıxardığı nəticə sonda belə ifadə olonur: “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin milli, suveren maraqlarına xidmət edən müstəqil siyasət kimlərisə ciddi narahat edir. Lakin onlar unudurlar ki, Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz. Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin reallıqları təhrif edən, qeyri-obyektiv və birtərəfli qətnaməsini qəti şəkildə rədd edir”.

***XQ***

# AHİK-in “Buzovna” Fizioterapiya Mərkəzi fəaliyyətə başlayıb



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Xəzər rayonunda yerləşən “Buzovna” Fizioterapiya Mərkəzi fəaliyyətə başlayıb. Açılış mərasimində hökumət nümayəndələri, Milli Məclisin deputatları, AHİK-in və üzv təşkilatların rəhbərləri iştirak ediblər.**

Öncə fizioterapiya mərkəzinə baxış olub. Məlumat verilib ki, mərkəzdə 90 nəfərlik 2 dördmərtəbəli yataq korpusu var. Bütün otaqlar zəruri məişət avadanlıqları ilə təchiz edilib. Eləcə də burada ittifaq üzvlərinin rahat dincəlməsi üçün istirahət guşələri yaradılıb.

Tədbirdə çıxış edən AHİK sədri Sahib Məmmədov işçilərin istirahəti və müalicəsinin təşkilinin, məzuniyyət dövrünün daha səmərəli keçirilməsi üçün şəraitin yaradılmasının həmkarlar ittifaqlarının daim diqqət mərkəzində olduğunu bildirib. Onun sözlərinə görə, hazırda konfederasiya tərəfindən ittifaq üzvlərinin rahat istirahəti üçün müasir və effektiv beynəlxalq təcrübənin tətbiqi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir.

İşin keyfiyyətinin artırılması istiqamətində həmkarlar ittifaqları sistemində struktur dəyişikliklərinin aparıldığını qeyd edən AHİK sədri vurğulayıb ki, əlçatanlıq, heç kimin kənarda qalmaması, inklüzivlik, bərabər imkanlar, fəaliyyətin qiymətləndirilməsi yeni mərhələdə bizim əsas prinsiplərimizdir: “Bir sözlə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, biz dövlət orqanları və işəgötürənlərlə birgə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması və cəmiyyətin ahəngdar inkişafı naminə səylərimizi bundan sonra da davam etdirəcəyik”.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, səhiyyə nazirinin müavini Rasim İsmayılov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Xəzər rayonundan Milli Məclisə deputat seçilən Soltan Məmmədov, tibb elmləri doktoru Nailə Məmmədova çıxış edərək, sağlamlığa xidmət edən bu cür mərkəzlərin yaradılmasının vətəndaşlarımıza olan qayğının, ölkəmizin inkişafının təcəssümü olduğunu bildirib, həmkarlar ittifaqları digər funksiyaları kimi, üzvlərinin istirahətinin təşkilinə və sağlamlığının qorunmasına da həssaslıqla yanaşdığını diqqətə çatdırıblar.

***XQ***

# Bakı–İrəvan sülhü: Razılıq və iradə həm var, həm də yox

## *Nikol Paşinyanın “Kazan manifesti”nə sözardı*



**Kazanda keçirilmiş XVI BRICS sammiti əsnasında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olub. Tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən, sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər. İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tezliklə yekunlaşdırılması və sənədin imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib. Əlbəttə, sırf ikitərəfli formatda belə bir görüşün reallaşması müsbət haldır. Lakin bəzi məqamların vurğulanmasına ehtiyac duyulduğunu nəzərə almaq şərti ilə.**

“Ermənistan və Azərbaycan sülhün əsasının yaradılması üçün bütün prinsipial məsələlər üzrə razılığa gəliblər”. Belə, ilk baxışdan, pozitiv təsir bağışlayan bəyanatın müəllifi də Ermənistan baş naziri N.Paşinyandır. O, Kazanda BRICS sammitinin “Autreach”/“BRICS plus” formatlı iclasında belə deyib. Paşinyan fikrini çox aydın şəkildə ifadə edib. O, sülhün əsasının yaradılmasından söz açırsa, belə nəticəyə gəlmək mümkündür ki, hələ söhbət tam olaraq sülhdən getmir. Hərçənd, Paşinyanın dediklərini Azərbaycanla Ermənistan arasında barış sazişi üzrə ciddi razılığın əldə edilməsi kimi də qiymətləndirmək mümkündür. Ancaq tələsməyək və Nikolun bu mövzuda daha nələri dilə gətirdiyinə diqqət yetirək.

Ermənistanın baş nazirinin sözlərinə görə, hazırda razılaşdırılmış məzmundakı barış sazişi layihəsi İrəvanla Bakı arasında sülh və münasibətlərin normallaşması istiqamətində möhkəm zəmin yaradılması üçün zəruri olan bütün fundamental məsələləri formalaşdırır və həll edir: “Biz Azərbaycanı bu sazişi imzalamağa dəvət edirik”.

N.Paşinyan, həmçinin yekun sənədin, ən azı, 80-90 faiz razılaşdırıldığını açıqlayıb və həmişəkitək ümumi məqamlar üzərində dayanıb: “Bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınması, qarşılıqlı ərazi iddialarının olmaması, gələcəkdə belə iddialarla çıxış etməmək öhdəliyi, diplomatik münasibətlərin qurulması və sülh müqaviləsi tərəflərinin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi üçün ikitərəfli mexanizmlərin yaradılması artıq tam razılaşdırılıb”.

Göründüyü kimi, erməni hökumət rəhbərinin fikrində yenilik yoxdur. Amma onun Ermənistan parlamentinin ölkənin Azərbaycanla dövlət sərhədinin delimitasiyası üzrə birgə dövlət komissiyasının fəaliyyəti haqqında əsasnamə layihəsini qəbul etdiyinə dair bildirdiklərini yenilik saymaq mümkündür. Çünki mövcud istiqamətdə müzakirənin getdiyi məlum olsa da, sənədin ratifikasiyasının başa çatdığı, müəyyən mənada, məchul qalırdı. Nikol qeyri-müəyyənliyi aradan qaldırdı.

Amma N.Paşinyan problemli məsələlərin üzərinə gəlmir. Daha doğrusu, gəlir, ancaq bir qədər fərqli tərzdə. Bu barədə bir qədər sonra. Hələlik isə erməni baş nazirin müştərək sərhəd komissiyası ilə bağlı əsasnamənin ratifikasiyasından sonrakı durumla bağlı proqnozlarına diqqət yetirək. O bildirib ki, sözügedən sənəd hər iki ölkədə qüvvəyə mindikdən sonra “biz 1991-ci il Alma-Ata Bəyannaməsinin əsas prinsipləri əsasında Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası prosesini intensivləşdirə biləcəyik”.

Əlbəttə, mövcud istiqamətdə hansısa irəliləyişin əldə edilməsi mümkündür. Amma gərək, prinsipial məqamların üzərindən keçilməsin. Əvvəla, Alma-Ata Bəyannaməsinin ehkamlaşdırılmasından uzaq durulmalıdır. Nəzərə alınmalıdır ki, sənəd yalnız baza kimi, yəni xoş niyyət göstəricisi olaraq qiymətləndirilməlidir. Başqa sözlə desək, bəyannamə sərhəd xəttinin bütün istiqamətləri üzrə keçərli sayılmamalıdır. Digər tərəfdən, başlıca məsələ sülh yolundakı 80-90 faizlik razılaşmada deyil. Razılıq tam olmalıdır. Azərbaycanın mövqeyi bundan ibarətdir ki, yekun barış sazişi Ermənistan konstitusiyasında, eləcə də ölkənin digər sənədlərində Azərbaycana qarşı ərazi iddialarının tamamilə aradan qaldırılacağı təqdirdə mümkündür.

Ermənistan konstitusiyası İstiqlaliyyət bəyannaməsinə istinad edir. Ölkənin Konstitusiya məhkəməsi isə bir müddət əvvəl qərar verdi ki, bəyannamənin əsas qanunda əksini tapmayan müddəaları etibarsızdır. Hazırda Paşinyan iqtidarı sübut etmək istəyir ki, bununla da bütün mübahisələrə son qoymaq mümkündür. Halbuki, belə deyimlər çox primitiv təsir bağışlayır.

Birincisi, İstiqlaliyyət bəyannaməsi adlı sənəd və orada Azərbaycana qarşı ərazi iddiası qalır. İkincisi, ərazi iddiası məsələsi Ermənistanın hüquq sisteminə o qədər ciddi şəkildə hopub ki, bu reallığı bir məhkəmə qərarı dəyişdirmək iqtidarında deyil. Üçüncüsü, Azərbaycan, böyük ölçüdə təminat istəyir. Elə bir təminat ki, səmimiyyət ab-havası yaratsın, otuz ildən artıq müddətdə mövcud olmuş işğalçılıq meyilinin yenidən baş qaldırmayacağına dair iradənin məhsulu kimi meydana çıxsın.

Buna görə də ölkəmiz prinsipial davranır və Ermənistanın konstitusiya dəyişikliyinə getməsi tələbini irəli sürür. Dəyişikliyin yolu isə ümumxalq səsverməsindən – referendumdan keçir. Deməli, referendum həm də erməni xalqının iradəsinin məhsulu kimi meydana çıxmalıdır. Keçirilmiş rəy sorğularının nəticələri isə göstərir ki, erməni cəmiyyətində Qarabağın Azərbaycan ərazisi olmasına dair razılıq yoxdur. Deməli, heç kim təminat verə bilməz ki, Paşinyandan sonra hakimiyyət kreslosuna əyləşəcək kimsə yenidən işğalçılıq niyyətinə düşməyəcək.

Bəli, erməni xalqı iradəsini göstərməlidir. Elə hakimiyyəti də. Həm Ermənistan cəmiyyəti, həm də dövləti birlikdə Azərbaycana və digər qonşulara qarşı ərazi iddiasının olmadığını dünyaya bəyan etməlidir. Bu, yalnız sözlə, yaxud hansısa məhkəmə qərarı ilə gerçəkləşən proses deyil. Yəni, Paşinyanın Kazanda bildirdiklərinin əksinə olaraq vurğulayaq ki, Ermənistan öz konstitusiyasındakı “qonşu ölkələrə qarşı iddia edilən ərazi iddialarının olması ilə bağlı bütün arqumentləri” aradan qaldırmayıb, “belə şərhlərin əsassız və qeyri-qanuni olduğunu” sübuta yetirməyib.

Yeri gəlmişkən, Nikolun “iddia edilən” ifadəsinə diqqət yetirək və ritorik suallara keçək. Belə çıxır ki, iddia edilirdi, ancaq Ermənistan heç kəsdən ərazi tələb etmirdi. Tələb etmirdisə, bəs torpaqlarımızın işğalı nə idi? Paşinyan nə üçün “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını vermişdi? Məgər o, həmin vaxt bilmirdi ki, bölgə beynəlxalq hüquq baxımından Azərbaycana məxsusdur? Əlbəttə, çox gözəl bilirdi. Bəs 44 günlük müharibə niyə baş verdi? Nikol bunun səbəbini də anlamamış deyil. O zaman onu da anlamalıdır ki, Azərbaycana Ermənistanın işğalçılıq niyyətinə düşməyəcəyinə dair daha böyük təminat lazımdır. Təminatın bir yolu var ki, onu da diqqətə çatdırdıq.

Bəli, təminatın bir yolu referendumdursa, digəri isə 80-90 faizlik sülh razılaşmasını tamlaşdırmaqdır. Deməli, üçtərəfli bəyanat yerinə yetirilməli, Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yol olmalıdır. Reallıq ondadır ki, rəsmi İrəvan buna da razı deyil və Paşinyan Kazanda mövqeyini bir daha təsdiqlədi. Fikrimizi əsaslandırmaq üçün iki məqamın üzərində dayanacağıq.

Birincisi, Ermənistanın baş naziri BRICS sammiti zamanı “Dünyanın kəsişməsi” təşəbbüsünü qaldırdı. O, hətta manipulyativ şəkildə bildirdi ki, sammitin mövzusu olan “BRICS və Qlobal Cənub – daha yaxşı dünyanın birgə qurulması” ilə “Dünyanın kəsişməsi” nəqliyyat-kommunikasiya layihəsi bir-birinə uyğundur. Paşinyan uyğunluğu nədə gördüyünü də açıqlayaraq dedi ki, Ermənistan öz ərazisindən nəqliyyat vasitələrinin, yüklərin, sərnişinlərin, boru kəmərlərinin, kabel yollarının keçidini təşkil etməyə hazırdır və prosesdə maraqlıdır. “Bu, Qara dənizlə Fars körfəzi arasında İran, Ermənistan və Gürcüstan ərazilərindən keçən ən qısa yoldur. Bu, Şimal-Cənub istiqamətidir. Bu, həm də Xəzər və Mərmərə dənizləri arasında Azərbaycan, Ermənistan və Türkiyə ərazilərindən keçən ən qısa yoldur, Şərq-Qərb istiqamətidir. Bu marşrutdan Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələri üçün də istifadə oluna bilər. Bu yanaşmanı nəzərə alaraq, biz Azərbaycana sərhəd və gömrük nəzarəti prosedurlarının sadələşdirilmiş mexanizmlərini, o cümlədən, hər iki ölkənin yurisdiksiyasına və suverenliyinə tam hörmət əsasında əlavə təhlükəsizlik tədbirlərini təklif etdik. Ermənistan malların, resursların, nəqliyyat vasitələrinin və insanların öz ərazisindən keçidinin təhlükəsizliyini təmin etməyə qadirdir və tam təmin edəcək. Bu, bizim istəyimizdir, öhdəliyimizdir və biz buna zəmanət veririk və həmişə belə olacaq”, – deyən Paşinyanın diqqətə çatdıracağımız növbəti fikri də onun üçtərəfli bəyanat məntiqindən uzaqlığının göstəricisidir: “Ermənistanın, guya, hansısa üçüncü ölkənin öz suveren ərazisində təhlükəsizliyi təmin edəcəyi ilə razılaşdığı və ya hər hansı sənəddə bunu nəzərdə tutan bütün bəyanatlar həqiqətə uyğun deyil”.

Göründüyü kimi, Ermənistan “Dünyanın kəsişməsi” avantürasını tirajlayaraq, çaşdırıcı mövqe tutur. Eyni zamanda, bu avantüranın ön planda olacağı sülh müqaviləsinin imzalanmasına nail olmağa çalışır. Heç şübhəsiz, belə yanaşma Qərbin sifarişidir. Qərb çalışır ki, Rusiyanın Cənubi Qafqazdakı rolunu minimallaşdırsın, tədricən bu rolu tamamilə sıradan çıxarsın. İrəvan isə məqsədə çatmaq alətidir.

Digər tərəfdən, Qərbin məqsədi erməni avantürizmini diri saxlamaqdır. Bu, Azərbaycana daimi təzyiq göstərmək mexanizmidir. Başqa bir yandan, Ermənistanın qlobal kommunikasiya habında mərkəzi fiqura çevrilməsi, Qərbə həmin habın iştirakçılarını da şantaj, onlara nələrisə diktə imkanı qazandıracaq. Aydındır ki, Bakı belə bir “ssenarinin” gerçəkləşməsinə, əsla, icazə verməyəcək. Ona görə də ölkəmiz şərtlər təmin edilməyəcəyi təqdirdə, Naxçıvana yolun Ermənistandan deyil, İrandan keçməsi təklifini irəli sürür və mövcud istiqamətdə iş aparır.

Hər bir halda, muxtar respublikaya yol İrəvanın ərazi bütövlüyü və suverenlik klişesinə uyğun formada keçməyəcək. Bu isə o deməkdir ki, nəinki Ermənistanın “Dünyanın kəsişməsi” avantürası reallaşmayacaq, habelə ölkə özü də əvvəllər olduğu kimi, yenə dalanda qalacaq, necə deyərlər, Qərbin artıq-urtuqları ilə dolanmaq aqibətini yaşayacaq. Paşinyan Kazanda bu aqibətin anonsunu verdi, başqa heç nə.

***R.ƏVƏZ***
***XQ***

# “Binokl diplomatiyası” üçün əlavə müddət

**(əvvəli 1-ci səhifədə)**

Ona görə də bu qeydlərimizdə Ermənistanın sülhdən uzaqlığını vurğulamaq baxımından bir məqamın üzərində dayanacağıq. Söhbət Avropa İttifaqının Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan hissəsində “lövbər salmış” mülki müşahidə missiyasından gedir. Daha doğrusu, onun ölkədə qalma müddətinin uzadılmasından. Artıq mövcud istiqamətdəki diskussiyalara start verilib. Sözügedən missiyanın mövcudluğunun nə demək olduğuna diqqət yetirəcəyik. Hələlik isə




Prezident İlham Əliyevin oktyabrın 14-də Belçika Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən səsləndirdiyi fikirlərin üzərində dayanaq. Dövlətimizin başçısı Bakı ilə İrəvan arasındakı sülhyaratma prosesində Aİ-yə etimadsızlıq doğuran faktorlardan biri kimi, qurumun Ermənistandakı mülki müşahidə missiyasından söz açmışdı. O missiyadan ki, onun təşəbbüskarı məhz Fransadır. Prezident İlham Əliyev vurğulamışdı ki, belə bir təsisatın mövcudluğu Azərbaycan–Aİ münasibətlərində də etimadsızlıq yaradır. Səbəb çox sadədir – “Avropa müşahidəçilər missiyasının” müddəti ölkəmizin razılığı olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılıb. Dövlətimizin başçısı ritorik sual vermişdi: “Buna nə ehtiyac var idi?!”

Əlbəttə, şərti sərhəddə avropalı müşahidəçilərə heç bir ehtiyac yox idi, indi də yoxdur. Lakin Azərbaycan hələ 2022-ci ilin oktyabrında buna razılıq vermişdi. Dəqiq desək, razılıq missiyanın cəmi iki ay ərzində fəaliyyət göstərməsində idi. Lakin müşahidəçilərin bölgədə qalma müddəti uzadıldı, ötən müddətdə də bir neçə dəfə uzadılıb. İndi də müşahidəçilik üçün əlavə müddətlə bağlı müzakirələr aparılır. Prezident İlham Əliyev Belçika səfiri ilə söhbətdə missiya üzvlərinin davranışının – “binokl diplomatiyası”nın qəbuledilməz olduğunu, normal siyasi mədəniyyət standartlarından kənarlığını bildirmiş və əlavə etmişdi ki, Azərbaycan Aİ ilə təmaslarda bu məsələni qaldıracaq.

Qeyd edək ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də bu ilin sentyabrında Aİ-nin sözügedən missiyası ilə bağlı fikirlər bildirmişdi. Cənab Hacıyev fikrini əsaslandırarkən demişdi ki, hazırda iki dövlət arasında nizamlanma prosesinin sülh, qarşılıqlı anlaşma şəraitindəki gedişatı var: “Artıq Avropa İttifaqının sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur. Bu missiyanın da fəaliyyətinə xitam verilməsinin zamanı yetişib”.

Ancaq əvvəldə də vurğuladığımız kimi, Ermənistanda fərqli düşünürlər. Fikrimizin təsdiqi kimi, ölkənin xarici işlər naziri Ararat Mirzoyanın parlamentdə mövzuya dair çıxışının bəzi məqamlarını vurğulayaq. Mirzoyan deyib ki, Aİ Ermənistandakı mülki müşahidə missiyasının mandatının uzadılması məsələsini ciddi şəkildə nəzərdən keçirir. Yəni, guya, nəzərdən keçirən tərəf İrəvan yox, Aİ-dir. Göründüyü kimi, XİN rəhbəri, öz aləmində, diplomatik davranır. Sanki, təşəbbüsün ölkəsindən yox, qurumdan gəldiyi amilini qabardır. Ardınca isə bəlkə özü də fərqinə varmadan reallığı açıqlayır.

“Hələ ki, Azərbaycanla imzalanmış və ratifikasiya olunmuş sülh müqaviləsi istisna təşkil etdiyindən, delimitasiya prosesi başa çatmadığından, sabit və uzunmüddətli sülh olmadığından, ölkələrimiz arasında münasibətlər tənzimlənmədiyindən və problemlər qaldığından, şübhəsiz ki, Ermənistan tərəfinin Azərbaycanın mümkün hərəkətləri haqqında müəyyən narahatlığı var”, – deyən Mirzoyan əlavə edib ki, ölkəsinə neytral, üçüncü tərəfin, yəni Aİ-nin müşahidə missiyasının obyektiv qiymətləndirmə aparması lazımdır. Deməli, müşahidəçilərin müddətinin uzadılması ideyasının müəllifi elə İrəvanın özüdür.

Əlbəttə, burada əsas məsələ sözügedən ideyanı ortaya atanın hansı tərəf olması deyil. Əsas təşəbbüskarın Fransa, daha dəqiq desək, prezident Emmanuel Makronun olduğu aydındır. O da aydındır ki, kollektiv Qərb Cənubi Qafqazda sülh mühitinin qərarlaşmasını istəmir, yaxud bu mühiti erməni avantürizminin saxlanması şərtilə arzulayır. Aİ də böyük ölçüdə həmin Qərbin ermənipərəst alətlərindən biri obrazında çıxış edir və qurum buna görə Ermənistanla müştərək hərəkətə, necə deyərlər, işbirliyinə üstünlük verir.

Mövcud trayektoriyadakı başlıca məqamı əvvəldə diqqətə çatdırdıq. Söhbət, bilavasitə, İrəvanın özünün sülhdən yayınmasından gedir. Bir daha vurğulayaq ki, barış mühitinin mövcud olmamasına görə birbaşa məsuliyyət daşıyan tərəf Ermənistandır. Yaxşı olar ki, Mirzoyan və digərləri bunu anlasınlar. Onlar Aİ-nin tərkibində pensiyada olan alman polislərindən və fransız jandarmlarından ibarət mənasız, heç bir işi olmayan, ölkələrində də məsxərə predmetinə çevrilmiş missiyasının saxta egidasına siyasi sərmayə yatırmaqdansa, barışıq yolunda real addımlar atsınlar. Amma görünür, belə niyyət yoxdur.

Bəli, bu niyyət yoxdur ki, Ermənistanda sözügedən missiyanın müddətinin uzadılmasından danışılır. Görünür, rəsmi İrəvan sərhəd təxribatlarını davam etdirməyi düşünür və hesab edirk ki, “binokl diplomatiyası”nın təmsilçiləri bu işdə kömək göstərəcək, sipər olacaqlar. Ancaq ölkə rəhbərliyi həmişəki kimi yanılır. Yanılır və nəzərə almır ki, vaxt getdikcə sülh çəmbəri də daralır. Əlahəzrət zaman Ermənistanın əleyhinə işləyir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ehtiyat hərbi vəzifəlilərin növbəti təlim toplanışı



**Bu ilin hazırlıq planına əsasən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb olunduğu növbəti təlim toplanışı davam edir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, ehtiyatdan çağırılan hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunurlar.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılır, onlara təhlükəsizlik qaydaları çatdırılır, eləcə də sıra hazırlığı üzrə məşğələlər keçirilir.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, təlim sahəsində praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra olunacaq.

***XQ***

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, Azərbaycan və Ermənistan arasındakı sərhədlərin dəqiqləşdirilməsində müəyyən problemlər mümkündür. Ən azı ona görə ki, təxminən, 100 ildən artıq müddətdə bölgədə düz-əməlli sərhəd olmayıb. 1991-ci ildə belə bir imkan yaransa da, İrəvanın təcavüzkar siyasəti səbəbindən məsələ reallaşmadı. Bununla belə, hesab edirik ki, hazırda sərhəd məsələsində hansısa ciddi problem yoxdur. Prinsipcə, hər şey aydındır, yalnız bir məsələdən başqa.

Həmin məsələ barədə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi

# Müharibənin və “boşanma”nın cəzası



nümayəndəsi Mariya Zaxarova növbəti dəfə söz açıb. Söhbət Naxçıvana yoldan gedir. Daha doğrusu, maneəsiz yoldan. O yoldan ki, Ermənistan rəhbərliyi ona imkan vermir, ölkənin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığına söykənərək, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliyin icrasından boyun qaçırır. Yəni deyəndə ki, Azərbaycanla Ermənistan arasında sərhəd xəttinin müəyyənləşməsində ciddi problem yoxdur, bu məsələni nəzərdə tutmuruq. Çünki, həqiqətən, ortada mürəkkəb durum var. Problemin kökü ondadır ki, rəsmi İrəvan üçtərəfli Bəyanatın öhdəlik reallığını qəbul etmir. Otuz ilə yaxın işğalçılıq siyasəti həyata keçir, neçə-neçə dinc azərbaycanlının öz doğma yurd-yuvalarından məhrum duruma sal, axırda heç bir itkisiz vəziyyətdən çıx. Hər halda, belə bir dünya və anlayış yoxdur.

Ancaq 2020-ci ildən sonra məsələni sırf itki kimi qəbul və təqdim etməmək üçün şanslar var idi. Axı üçtərəfli bəyanatda aşağılayıcı, əmredici ton yoxdur. Ən əsası, 44 günlük müharibə qalibi olan Azərbaycan savaş bitən kimi Ermənistana barış əlini uzatmış və Cənubi Qafqazda əməkdaşlıq amilini qabartmışdı. Bəyanatın Naxçıvana yol məntiqi mövcud təqdimatda idi. Yəni məsələ etiket qaydalarına uyğun formada– regional kommunikasiyaların açılması şəklində qoyulmuşdu. Hətta Ermənistanın mənfəətləri də hesablanmışdı. Ancaq ölkə fərqli yolu seçdi...

Bəli, rəsmi İrəvan üçtərəfli bəyanatı nəzərə almadı və Qarabağda özünün qeyri-qanuni hərbi birləşmələrini saxladı, bölgəyə silah-sursat, mina daşıdı, Laçın dəhlizi ilə bağlı isteriya qaldırıb anti-Azərbaycan təbliğatına baş vurdu, etimad quruculuğundan, səmimiyyətdən uzaq durdu. Azərbaycan nə əldə etdisə, öz gücü və potensialı hesabına qazandı. İndi, necə deyərlər, bıçaq sümüyə dirənib. Çünki Ermənistan avantürizmə baş vurur, Naxçıvana maneəsiz – heç bir sərhəd və gömrük nəzarəti olmayan yolu təmin etmək istəmir, üstəlik, ölkənin rəhbərliyi həyasızcasına bildirir ki, üçtərəfli Bəyanat müharibə məğlubiyyətini təsdiqləyən sənəd deyil. Bəs görəsən nə sənədidir?

Bəli, Ermənistan heç nə olmamış kimi davrana bilməz. Yuxarıda ölkənin Azərbaycana qarşı təcavüzünün bəzi fraqmentlərini açıqladıq. Nəzərə alaq ki, rəsmi İrəvan Rusiyanın da borcunu qaytarmalıdır. Moskva otuz ilə yaxın Ermənistanı bəsləyib. Axı “boşanmanın” cəzası olmalıdır. İndiki məqamda cəza üçtərəfli bəyanatın 9-cu bəndinin icrası – Naxçıvana yol şərtlərinin ödənməsidir. Ümumən şərtlər, kifayət qədər, konkretdir: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Deməli, Ermənistan baş nazirinin müavini M.Qriqoryan, ən azı, onu bildirməməlidir ki, bəzi məsələlərdə konsensus olmadığından, regional kommunikasiyaların blokdan çıxarılması üzrə Moskva, Bakı və İrəvandan ibarət üçtərəfli işçi qrup iclaslarını yarımçıq qoyub. Daha doğrusu, sözügedən qrup işləməlidir. Amma işləmir və Qriqoryan da təsdiqləyir ki, başlıca problemli nüans Ermənistanın Sünik bölgəsindən keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəhlizin yaradılmasıdır. M.Zaxarova isə keçirdiyi ənənəvi brifinqdə məhz bu məsələnin üzərində dayanaraq, ölkəsinin baş nazirinin müavini Aleksey Overçukun bir müddət əvvəl səsləndirdiyi fikri təkrarlayır. O deyir ki, Rusiyanın iştirakı omadan regional kommunikasiyalar fəaliyyət göstərə bilməz.

Yeri gəlmişkən, Rusiya XİN-in sözçüsü daha əvvəllər də A.Overçukun tərkibində yer aldığı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin birgə işçi qrupunun fəaliyyətinin pozulmasından söz açmışdı. O vurğulamışdı ki, qrup bir çox məsələlərdə konsensus əldə etmişdi. Zaxarovanın sözlərinə görə, Naxçıvana yolun Ermənistanın yurisdiksiyası altında qalmaqla, maneəsiz keçid funsiyası daşımasına dair ayrı-ayrı müddəalar razılaşdırılmışdı. Lakin son anda erməni tərəfi gedişatdan boyun qaçırmışdı. Üçtərəfli qrupun işini dayandırmasının səbəbi məhz budur.

M.Zaxarovanın, bilavasitə, A.Overçukun Rusiya olmadan Cənubi Qafqazda regional kommunikasiyaların açılmasının mümkünsüzlüyü məntiqini yada salmasına gəlincə, burada başlıca hədəf Ermənistandır. Xanım sözçü demək istəyir ki, üçtərəfli bəyanatın şərti yerinə yetirilməsə, yəni, Naxçıvana maneəsiz yol və həmin yolda Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçilərinin keşik çəkmələri təmin edilməsə, İrəvan otuz ilə yaxın müddətdə olduğu kimi, yenə dalanda qalacaq. Deməli, Ermənistan 44 günlük müharibənin, digər çoxsaylı yarıtmazlıqlarının, uzun müddət, yəni işğal dövründə Naxçıvana quru yolu İrandan keçib və gediş-gəlişdə hansısa problem qeydə alınmayıb. Deməli, keçmişin müsbət təcrübəsi var. Həmin təcrübənin daha fundamental şəkildə tətbiqi üçün baza da mövcuddur. Qalır iradə nümayişi ki, bu, başqa söhbətin mövzusudur...

N.Paşinyanın əvvəldə haqqında söz açdığımız risk məntiqinə gəldikdə, deməliyik ki, hələlik ən böyük risk də Naxçıvana yolun Ermənistandan deyil, məhz İrandan keçməsidir. Mövcud trayektoriyada Paşinyan hakimiyyətinin etdiyi səhv ərazi bütövlüyü və suverenlik iddiasına əsaslanmaqdır. Buna görədir ki, hazırda ölkə müxalifəti Ermənistan ərazisinə qəsd ritorikası üzərində dayanaraq manipulyasiya yolu tutur. Nikolun isə əlində Ermənistanın xəritəsini tutub bir millimetr ərazinin belə güzəştə gedilməyəcəyi deməsi vəziyyəti dramatikləşdirir. O, ümumən, ərazi güzəşti amilini qabartmamalı, çox xoşladığı Qərbin təcrübəsi üzərində dayanmalı idi. Axı Avropada sərhəd anlayışı yoxdur. Olmazdımı ki, Paşinyan bu məqamı tirajlayaydı? Görünür, olmazmış və ona görə M.Qriqoryan bildirir ki, sərhədin tam demarkasiyasının mümkünsüzlüyünə dair risklər var.

Bildirdiyimiz kimi, sözügedən mümkünsüzlük Ermənistan üçün dalan aqibətini müəyyənləşdirir və Paşinyan hakimiyyəti hazırkı destruktiv hərəkətləri ilə ondan çıxış imkanlarını minimallaşdırır, hətta heçə endirir. Nəzərə alaq ki, Naxçıvana yolun İrandan keçməsi də böyük ölçüdə regional kommunikasiyaların açılmaması deməkdir. Yəni A.Overçuk həqiqəti deyir, Zaxarova təkrarlayaraq təsdiqləyir. Ən başlıca məqam isə Ermənistanın havadarlarının – Qərbin bu aqibətlə barışıb-barışmayacağıdır. Hazırda İrəvan sürətlə silahlanır. Çox böyük ehtimal ki, Qərb Naxçıvana yolun İran ərazisindən keçməsini əngəlləmək üçün regionda sabitliyi pozmaq istəyəcək. Ermənistan əsaslı şəkildə bu “ssenaridə” alətə çevrilməyə razı olacaqsa, ölkənin gələcəyi şübhə altına düşəcək. Axı Naxçıvana gedən qatarın çarxına çomaq soxmaq İrəvanın gücü daxilində deyil. Riskdən söz düşmüşkən, sərhədlər baxımından əsl risk Ermənistanın başından yekə davranmağa qalxmasıdır. Nəzərə alaq ki, sərhədsiz dövlət olmur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Bölgədə gərginlik

# Gürcüstan Qərbin hədəfində



**Gürcüstanda növbəti parlament seçkilərinə xarici müdaxilədən ehtiyatlanırlar. Elə Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvilinin açıqlaması da bundan xəbər verir. Spiker qeyd edib ki, bir sıra məqamlar Gürcüstanda hökumət çevrilişinə hazırlıqların davam etdiyini göstərir: “Bir çox hallar göstərir ki, oktyabrın 27-nə və qeyri-konstitusion hökumət dəyişikliyinə hazırlıqlar davam edir. Bunu çevriliş və ya başqa bir şey adlandıra bilərsiniz. Bu, 2020-ci ildəki cəhdin təkrarıdır”. Spiker, həmçinin müxalifətin seçki kampaniyasının ölkə xaricindən idarə olunduğunu əlavə edib.**

Qeyd edək ki, müxalifət də öz növbəsində Rusiyanın seçkilərə təsir və ya müdaxilə edə biləcəyindən bəhs edir. Ancaq ölkənin Baş naziri İrakli Kobaxidze “Euronews” telekanalına müsahibəsində bu iddiaların yalan olduğunu bildirib: “Rusiyanın Gürcüstanda keçirilən seçkilərə heç bir təsiri yoxdur. Ümumiyyətlə, Rusiyanın Gürcüstana təsiri yoxdur. Onların Gürcüstanda təsir edə biləcəkləri siyasi partiya mövcud deyil. Media kanalları ilə də onların təsiri yoxdur. Ona görə də Rusiya tərəfi mahiyyətcə Gürcüstanda seçkilərə təsir edə bilmir”.

Onu da bildirək ki, bir neçə gün öncə Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşəbbüsü ilə Tbilisidə “Gürcüstan və Azərbaycan QHT-lərinin ictimai iştirakçılıqla bağlı informasiya mübadiləsi” mövzusunda beynəlxalq konfrans baş tutub. Azərbaycan və Gürcüstanının vətəndaş cəmiyyəti ekspertlərinin iştirak etdiyi tədbirdə hər iki ölkədə QHT sektorunda görülən işlərə, eləcə də bəzi çağırışlara diqqət yetirilib.

Çıxış edənlər bir sıra Qərb ölkələrinin regionda qeyri-hökumət təşkilatları vasitəsilə öz nüfuzunu gücləndirməyə çalışdığını, zərərli ideologiyalar yaymağa cəhd etdiyini, region ölkələrinin milli maraqlarına zidd olan müxtəlif fəaliyyətləri maliyyələşdirməyə çalışdığını qeyd ediblər. Onlar Azərbaycan və Gürcüstan QHT-lərinin milli maraqların qorunması baxımından əməkdaşlığının vacibliyini vurğulayıblar.

Tədbirdə, həmçinin iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin qədim tarixi olduğu, QHT sektorunda əlaqələrin dərinləşdirilməsi ilə bu münasibətlərə töhfə verilməsinin önəmi qeyd olunub. Konfransda Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə COP29 çərçivəsində yaradılan “COP29 QHT Koalisiyası”nın fəaliyyəti, bu koalisiyada Gürcüstan QHT-lərinin iştirakı məsələsi də müzakirə edilib. Qeyd olunub ki, sözügedən koalisiyaya artıq 72 ölkədən 350 QHT qoşulub və bu Azərbaycanın vətəndaş cəmiyyətinin böyük uğurudur.

Eyni zamanda, Qərbin Gürcüstanda QHT-lərin qeyri-şəffaf maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə qəbul edilmiş “Xarici təsirin şəffaflığı haqqında” Qanun əleyhinə fəaliyyətləri də müzakirə edilib. Vurğulanıb ki, qanunun qəbul edilməsindən sonra təzyiqlər həm də Qərbin bu ölkəyə təsir rıçaqlarını itirmək qorxusu ilə əlaqədardır.

Gürcü ekspertlər, bəzi donor təşkilatlarının qeyri-şəffaf maliyyələşmə ilə Gürcüstanda destruktiv fəaliyyətləri və radikal təşkilatları maliyyələşdirdiyini, bunun Gürcüstanın təhlükəsizliyinə təhdid törətdiyini qeyd ediblər.

**Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli** XQ-yə



açıqlamasında bildirdi ki, Azərbaycan və Gürcüstan regionda müstəqil siyasət həyata keçirirlər. İki ölkə region üzrə gündəliyin müəyyən olunmasında söz sahibinə çevriliblər. Bu isə bir sıra ölkələri qıcıqlandırır. Nəticədə Azərbaycan və Gürcüstana qarşı müəyyən dezinformasiyalar yayılır: “Biz bilirik ki, son vaxtlar Qərb mediasında, eyni zamanda, Qərb siyasi institutlarında Gürcüstana müəyyən təsir göstərmək məqsədilə addımlar atılır. Mediada yazılar dərc olunur, qətnamələr qəbul olunur, ölkə sanksiyalarla hədələnir. Gürcüstan parlamentinin qəbul etdiyi “Xarici təsirin şəffaflığı haqqında” Qanun, eyni zamanda, LGBT ilə bağlı təbliğatın qadağan edilməsi bəhanə kimi istifadə olunur. Bununla əlaqədar ölkəyə xeyli təzyiqlər göstərilir. Qarşıdan gələn seçki ərəfəsində təzyiqlər daha da intensivləşə bilər”.

R.İskəndərli qeyd etdi ki, Azərbaycan QHT-ləri Gürcüstanda vəziyyətin sabit olmasında maraqlıdırlar: “Biz milli-mənəvi dəyərlərin qorunması, eyni zamanda, Gürcüstanın müstəqilliyinin və suverenliyinin möhkəm olması istiqamətində aktiv fəaliyyət göstərən QHT-lərlə əməkdaşlıq edirik. Birgə tədbirimiz də buna sübutdur. Biz eyni zamanda, Gürcüstan QHT-lərini “COP29 QHT Koalisiyası”nın fəaliyyətinə cəlb etmək təklifini verdik. Artıq onlardan bir neçəsi koalisiyaya qoşulub və bizimlə aktiv əməkdaşlıq edəcəkdir. Hesab edirik ki, Gürcüstanda müstəqillik, suverenlik və dövlətçilik istiqamətində çalışan təsisatlar seçkidən sonra da öz fəaliyyətlərini davam etdirəcəklər. Qərbin müxtəlif ölkələrinin təzyiqləri bu sahədə hər hansı dəyişikliyə imkan yaratmayacaq”.

Müsahibimiz regionda müstəqil siyasət yürüdən Azərbaycanın da Qərbin bəzi ölkələri, xüsusilə ABŞ, Fransa və digərləri tərəfindən təzyiqə məruz qaldığını vurğuladı: “Onlar istəyirlər ki, Azərbaycan onların dediklərinə əməl etsin. Lakin bu, əlbəttə, mümkün deyil. Bizim əməkdaşlıq etdiyimiz QHT-lər isə regionda sülhün, sabitliyin və təhlükəsizliyin tərəfdarlarıdır. Bu sahədə bizim əməkdaşlığımız davam edəcək”.

**İqtisadi və Sosial İnkişaf Mərkəzi İctimai Birliyində tədqiqatçı Fuad Kərimli** “XQ”yə



bildirdi ki, bir neçə gün öncə Milli QHT Forumunun Tbilisidə keçirilən tədbirdə o da iştirak edib. Onun sözlərinə görə, seçkiqabağı qonşu ölkədə olmaq prosesləri əyani müşahidə etməyə imkan verib: “Bundan əlavə özümüzün araşdırma və tədqiqatlarımız nəticəsində bu qərara gəldik ki, Qərbin, həqiqətən də, Gürcüstanda çox böyük təsiri, təsir gücü var. Qərb son 20 ilə yaxın müddət ərzində QHT sektoruna yüz milyonlarla dollar yatırım edib, qrantlar ayırıb və sair. Orada QHT sektoru, həqiqətən də, qərbyönümlü və ideoloji səviyyəyə gəlib. Təəssüf ki, bu hal ölkənin daxili siyasətinə də təsir edir. Çünki aldığımız məlumata görə, hazırda Gürcüstanda rəsmi qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatlarının sayı 30 mindən çoxdur. Gürcüstanın qeyri-hökumət təşkilatlarının hər nə qədər ideoloji düşüncələri olsa da, xalqın yanaşması, problemi və marağı Avropa İttifaqı ilə yaxınlaşmaqdır. Düşünürəm ki, burada xalqın QHT-lərlə ümumi bağlantısı, sadəcə olaraq, bu yöndədir. Təəssüf ki, QHT-lər də bu amildən sui-istifadə edirlər. Biz bunu son vaxtlar artan mitinqlərdə də görürük”.

Qərbin proseslərə təsirinin böyük olduğunu deyən F.Kərimli Qərb təmsilçilərinin son vaxtlar çıxışları ilə bunu büruzə verdiklərini qeyd etdi. Məsələn, ABŞ-nin Tbilisidəki səfiri bildirmişdi ki, Gürcüstanın “Xarici təsirin şəffaflığı haqqında” Qanuna ehtiyacı yoxdur: “Bu, əslində, absurd haldır. Yəni, biz burada xarici ölkənin Gürcüstanın daxili siyasətinə və qanunvericiliyinə qarışmaq cəhdini görürük. Amma bu təsir göstərmək cəhdi təkcə ABŞ-dən deyil, başqa Qərb ölkələrindən də müşahidə olunur. Avropa İttifaqı ölkələrinin səfirləri də oxşar çıxışlar edirlər. Bu onu göstərir ki, Qərbin Gürcüstanda təsir gücünün böyük olmasından əlavə marağı da həqiqətən yüksəkdir”.

Bununla belə, F.Kərimli qeyd etdi ki, hakim partiyaya qarşı olan siyasi partiyaların populyarlığı o qədər də yüksək deyil: “Tədbir əsnasında söhbət etdiyimiz QHT nümayəndələri iqtidar partiyasının seçkiləri qazanacağını bildirdilər. Amma bu fikir Gürcüstandakı QHT-lərin gücünü kiçiltmək kimi anlaşılmamalıdır. Düşünürəm ki, onların təsir gücü çoxdur. Çünki onlar xalqa daha yaxındırlar və xalqın nə istədiyini daha yaxşı bilirlər. Avropa İttifaqına yaxınlaşmaq düşüncəsi ilə xalqa vədlər verib cəmiyyəti hərəkətə gətirməyin çox rahat olduğunu düşünürəm”.

**Politoloq İlyas Hüseynov** isə bildirdi ki, Gürcüstanda seçkilərin gərgin keçəcəyi əvvəldən məlum



idi. Onun sözlərinə görə, görünən odur ki, Qərb artıq hərəkətə keçib, öz resurslarını işə salıb. Uzun illər ərzində vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları, media sahəsində aparılan fəaliyyətin nəticəsi bu gün göz qabağındadır. Qərb məhz bu resurslara güvənərək Gürcüstan ərazisində müxtəlif təxribatların törədilməsini həyata keçirə bilər.

İ.Hüseynov dedi ki, seçkilərin nəticəsini gözləmədən ümumi rəyə təsir etmək üçün Gürcüstanda əhalinin bir qisminin hakimiyyət əleyhinə etirazları görünür: “Bu, həm də proseslərin arxasında olan qüvvələrin öz məqsədlərinə çatmaqda maraqlı olduqlarını deməyə əsas verir. Lakin digər tərəfdən iqtidar partiyasının da dayaqları möhkəmdir. Ümumilikdə Gürcüstandakı seçkidə beş siyasi qüvvə mübarizə aparacaq, iki partiyanın isə şansları daha yüksəkdir. Onların arasında “Gürcü Arzusu – Demokratik Gürcüstan”a etimad edənlər daha çoxdur. Bu baxımdan artıq Qərb öz maraqlarını burada tətbiq etmək niyyətindədir”.

Politoloq onu da bildirdi ki, Qərb Gürcüstana müxtəlif vədlər verərək Cənubi Qafqazda möhkəmlənmək istəyir. Digər tərəfdən, cəzalandırma mexanizmləri də işə düşüb. Sanksiyalarla bağlı hədələmələr, Avropaya inteqrasiya yolu tutan Gürcüstanın yolunu kəsmək üzərində də iş aparılır. Oktyabrın 26-da gürcü xalqı öz gələcəyinə səs verməlidir və nəticənin müstəqil siyasətin yürüdülməsi yönündə olması arzuolunandır.

***Səxavət HƏMİD***
***XQ***

# Qonşu Gürcüstanda tarixi seçim məqamı

*İrakli Kobaxidze:*

## Hüquq-mühafizə orqanlarımız ölkədə sabitliyi nəzarətdə saxlayır

*“Sputnik Georgia” seçkiöncəsi vəziyyətdən nikbindir*

**Artıq hamının bildiyi həqiqətdir ki, Qərbin siyasi dairələri Cənubi Qafqazı oyun meydanına çevirmək istəyirlər. Daha doğrusu, burada öz maraqlarını təmin etmək üçün minbir oyundan çıxırlar. Ancaq indi SSRİ-nin çökdüyü illər deyil ki, postsovet ölkələrini hərə bir yana çəkmək istəsin. İndi Azərbaycan da, Gürcüstan da öz xalqının maraqlarını, milli dövlətçilik mənafelərini qorumaq üçün lazım olan bütün addımları ata bilirlər. Ermənistanın isə ipinin üstünə odun yığmağın mümkün olmadığını hamı bilir.**



ABŞ və Qərb dövlətləri indiyədək olduğu seçkilər kimi Gürcüstanda keçiriləcək növbəti parlament seçkiləri ərəfəsində də bu ölkədəki “öz adamlarının” fəaliyyətini açıq şəkildə stimullaşdırırlar. Hətta bəzi bəd proqnozlar da səsləndirilməkdədir. Ancaq gürcü xalqı öz maraqlarını kiminsə istəyinə qurban vermək niyyətində deyil.

Xatırladaq ki, qonşu ölkədə parlament seçkiləri oktyabrın 26-da keçiriləcək. Əsas mübarizə iqtidardakı “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyası ilə müxalifətdəki Milli Hərəkat qüvvələri arasında gedir. Ancaq ortada özünü “radikal müxalifət” adlandıran cəbhə də var. Ekspertlərin fikrincə, iqtidar partiyasının məqsədi hakimiyyətdə qalmaq, “milli hərəkat”ın məramı isə hakimiyyətə gəlməkdir. Özünü “radikal müxalifət” adlandıranların isə ökədə xaos-anarxiya yaratmaqdan başqa bir məqsədləri yoxdur. Gürcüstanda hamı bilir ki, onlar haradan maliyyələşdirilir və kimlər tərəfindən ruhlandırılırlar.

O da məlumdur ki, Gürcüstan hakimiyyəti ölkədə sabitliyin pozulmasına imkan verməyəcək. “Sputnik Georgia” xəbər agentliyi dövlətin bu mövqeyini Baş nazir İrakli Kobaxidzenin dilindən eşitdiyi kimi yayır. Bu agentliyin oktyabrın 24-də saat 14:30-da yaydığı xəbərdən məlum olur ki, ölkədə vəziyyət nəzarət altındadır.

Baş nazir deyib: “Hüquq-mühafizə orqanlarının yorulmaz fəaliyyəti nəticəsində Gürcüstanda vəziyyət sabitdir. İki gündən sonra Gürcüstanda olduqca mühüm, prinsipial əhəmiyyət kəsb edən parlament seçkiləri keçiriləcək. Mən məmnuniyyətlə demək istərdim ki, həmin seçkilərin heç bir insidentsiz, sakit şəkildə keçəcəyinə inanıram. Çünki, bu, çox mühüm məsələdir”.

Gürcüstan hökumətinin başçısı əlavə edib ki, biz lazım olan bütün addımları atmalıyıq ki, seçkilər məhz xalqın istədiyi şəkildə keçsin və sabit vəziyyətdə başa çatdırılsın.

***İttifaq MİRZƏBƏYLİ***

## İnanırıq ki, dost gürcü xalqı Qərbin fitvasına getməyəcək



**Məlum olduğu kimi, bu gün böyük güclər bəzi dövlətlərdən şəxsi maraqları üçün istifadə etməyə çalışırlar. Çox təəssüf ki, onlar hər zaman öz məqsədləri üçün strateji dövlətləri “yumşaq güc” vasitəsilə asılı hala salmağa və dolayısı ilə onun müstəqilliyini əlindən almağa çalışırlar.**

2020-ci ilin Azərbaycanın 44 günlük Vətən müharibəsi Zəfərindən sonra böyük güclərin ölkədaxili sabitliyi pozmağa və dövlət – xalq birliyinə ziyan vurmağa çalışmaqla regionda nəzarəti ələ almaq cəhdlərinin şahidi olduq. Nəticədə Azərbaycanın apardığı xarici və daxili siyasət və sarsılmaz birlik dövlətimizi zəiflətməklə region üzərində qurulan bütün ssenariləri boşa çıxardı. Təbii ki, bu cür oxşar təzyiqlər hələ də davam etməkdədir. Son olaraq ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP29-la bağlı da saxta kampaniyaların aparıldığının şahidi oluruq.

Görünür Azərbaycana qarşı cəhdlərində uğursuz olan Qərb bu dəfə hədəf olaraq Gürcüstanı seçib. Hazırda qonşu Gürcüstan Qərbin analoji təhdidi ilə üz-üzədir. Biz yaxşı başa düşürük ki, hazırda Gürcüstanda davam edən proseslər bütövlükdə ölkənin imtahanıdır və bunun nəticələri birbaşa olaraq xalqın taleyinə təsir edəcək. Həmin qara qüvvələrin Gürcüstanda ölkədaxili təsiri artırmağa və seçki öncəsi daxili qarşıdurmalar yaratmağa çalışdığını bilirik. Ancaq dövlətin və xalqın məqsədi eyni olarsa, kənar təsirlər fayda verməz.

Azərbaycan təcrübəsindən çıxış edərək əminliklə söyləyə bilərik ki, QHT – dövlət birliyi, bəlkə də, ölkədaxili ən önəmli kombinasiyalardan biridir. Gürcüstanlı həmkarlarımızın da bu cür birlik nümayiş etdirməsi, qonşu dövlətin vətəndaşları olaraq bizi çox sevindirir. Son illər hər iki dövlətin apardığı siyasətə nəzər yetirsək Azərbaycan və Gürcüstanın bir sıra vacib məsələlərdə, xüsusilə QHT-lərə və onların fəaliyyətlərinə olan yanaşmada ortaq tərəflərə sahib olduğunu görə bilərik. Əlbəttə, heç bir halda bizim Gürcüstanın daxili məsələlərinə və onun gələcəyi ilə bağlı mühüm qərarlar verməsinə təsir etmək niyyətimiz yoxdur. Lakin, rəsmi və qeyri-rəsmi mənbələrə istinadən görürük ki, Qərb öz çirkin məqsədləri üçün bəzi yerli QHT-ləri maliyyələşdirir, onları dövlətə və xalqa qarşı çıxmağa sövq edir. Buna görə də vətəndaş cəmiyyəti təşkilatları olaraq baş verən xoşagəlməz hadisələrin, gürcü xalqına olan təzyiqlərin və dövlətə qarşı olan təhdidlərin yerli QHT-lərdən istifadə olunmaqla həyata keçirilməsi bizi də ciddi şəkildə narahat edir.

Elə məhz bu proseslər fonunda Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri olaraq QHT həmkarlarımızla həmrəylik nümayiş etdirmək məqsədilə Gürcüstana səfər etdik. Səfər çərçivəsində çox uğurlu görüşlərimiz baş tutdu. Bu görüşlərimizdə biz vətəndaş cəmiyyəti təşkilatları olaraq, hər zaman xalqların müstəqilliyini, söz azadlığını və yüksək rifahını istədiyimizi həmkarlarımıza çatdırdıq. Keçirdiyimiz görüşlərdən sonra müşahidələrimiz onu göstərir ki, Gürcüstan dövləti müstəqil siyasət yürüdür və yerli QHT-lər də öz hökümətlərinin doğru yolda olduğunu düşünürlər.

Həmçinin, xüsusilə qeyd olunmalıdır ki, 2025-ci ilin yanvarından qüvvəyə minəcək qanuna əsasən, yerli qeyri-hökumət təşkilatlarının dövlət büdcəsindən xarici donorların verdiklərindən 2 dəfə çox maliyyə almaq imkanları olacaq. Şübhəsiz ki, bu addım ölkənin gücünün və müstəqilliyinin sarsılmazlığından xəbər verir. Biz dövlətinə, xalqına bağlı olan yerli vətəndaş cəmiyyəti nümayəndələrinin reallıqlardan çıxış edərək doğru qərar verəcəyinə inananır və ümid edirik ki, dost və qonşu ölkədə keçiriləcək parlament seçkilərində yalnız və yalnız Gürcüstan qalib gələcək.

***Oğuz MİRZƏYEV,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondu***

## Gürcü seçicilər sülhə və inkişafa səs verəcəklər

**Gürcüstanda parlament seçkilərinə cəmi bir gün qalıb. Qələbəyə əsas namizəd olan “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyası parlament seçkilərində konstitusiya üstünlüyünə nail olmağa ümid edir. Bir sıra televiziya kanallarının sorğusuna əsasən, ölkə əhalisinin 60 faizi də bu partiyanı dəstəkləyir. Bu və digər məsələlərə aydınlıq gətirmək üçün “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyasından deputatlığa namizəd David Şerazadişvili ilə görüşdük.**



**– Cənab Serazadişvili, partiyanız oktyabrın 26-da geçiriləcək Gürcüstan parlamentinə seçkilərdə qalib gələcəyini bildirir. Bu əminlik haradandır?**

– Oktyabrın 26-sı Gürcüstan üçün çox önəmli gündür. Bu gün ölkəmizin taleyi həll olunur. Vətənin qorunub saxlanması, ölkəmizin xilası seçicilərdən asılıdır. İnanıram ki, inamla qalib gələcək, birlikdə Gürcüstanın xoşbəxt gələcəyini təmin edəcəyik. Seçicilər müharibə, dağıntı istəmirlər. Bu yol bizim yol deyil. Biz ailə dəyərlərimizi, sülhü qorumaq istəyirik, övladlarımızın parlaq və azad bir şəraitdə yaşamaları naminə seçkilərə gedirik. Əsas məqsədimiz konstitusiya çoxluğunu əldə etməkdir. Buna nail olsaq, bir daha konstitusiya səviyyəsində ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların qorunmasını gücləndirəcək, həmçinin gürcü pravoslav kilsəsinin ölkənin əsas qanununda mühüm rolunu əks etdirməsini təmin edəcəyik.

Seçicilər ölkəmizdə sülhün qorunub saxlanılması, övladlarımızın parlaq və azad şəraitdə yaşamaları, ən əsası, müxalifətin ölkəmizi müharibə şəraitinə sürükləməsi və onların ən iyrənc siyasətlərindən biri olan LGBT təbliğatına son qoyulması naminə oktyabrın 26-da “Gürcü Arzusu – Demokratik Gürcüstan”a səs verməlidirlər. Onlar bununla öz gələcəklərinə səs vermiş olacaqlar. Ümidvaram ki, bugünkü hakimiyyət 26 oktyabrda da yüksək səs faizi yığaraq konstitusiya çoxluğunu qazanacaqdır.

**– İqtidar 2008-ci il müharibəsində Saakaşvili hakimiyyətini günahlandırır. Hazırkı seçkilərdə də onlar lazımi fəallıq göstərirlər.**

– Milli Hərəkat və ona yaxın olan partiyalar çox təhlükəli oyun oynayır, Qərbin tapşırıqlarını yerinə yetirərək Gürcüstanda qarışıqlıq yaratmağa çalışırlar. Müxalifət ölkəni fəlakətə – müharibəyə sürükləyir, milli dəyərlərimizi ayaq altına atmaq istəyir. Artıq bir dəfə müharibənin acı nəticəsini yaşamışıq, LGBT kimi ailə dəyərlərimizi sarsıdan yolla gedə bilmərik. Konstitusiya çoxluğu əldə etsək, Milli Hərəkat və onun kimi milli mənafelərə xəyanət edən partiyaları konstitusiya səviyyəsində qadağan etməli olacağıq. Onlar Gürcüstan əhalisinə qarşı törədilən cinayətlərə, o cümlədən, ən ağır cinayətə – müharibəyə görə cəzalandırılacaqlar. Bu barədə partiyamızın lideri Bidzina İvanişvili də dəfələrlə çıxış edib.



**– Partiyanız müstəqil siyasət yeridir. Bu isə Qərbi narahat edir. Seçkidən sonra partiya anoloji siyasətini davam etdirəcəkmi?**

– Hələ 2014-cü ildə Rusiyaya qarşı sanksiya təzyiqlərinin başladığı ilk dövrlərdə Gürcüstan Rusiyaya qarşı heç bir sanksiya həyata keçirməyib. Bununla yanaşı, Qərbin Rusiyaya qarşı tədbirlərində iştirakını məhdudlaşdırıb. Sonrakı dövrlərdə də ölkəmiz Rusiyaya qarşı qəbul edilmiş sanksiyalardan kənarda qalmağa çalışıb. İqtidar həmişə öz xalqının və dövlətinin maraqlarından hərəkət edib.

Son illərdə iqtidarın qəbul etdiyi iki qanun da ölkəmizin maraqlarına xidmət edir. Bu hay-küylü qanunlar da Gürcüstanı Rusiya meyillilikdə ittiham etməyə səbəb olub. Bu da “Xarici təsirin şəffaflığı” və “Xarici agentlərin qeydiyyata alınması” barədə qanunların qəbulu, həmçinin LGBT ilə mübarizə çərçivəsində atılan addımlarla bağlı idi.

Nəticədə Gürcüstanın Aİ-yə inteqrasiya prosesi dayandırıldı, ölkəmiz üçün nəzərdə tutulmuş maliyyə yardımı donduruldu. ABŞ onlarca Gürcüstan vətəndaşlarına qarşı məhdudiyyətlər və məmurlara qarşı sanksiyalar tətbiq etdi.

Halbuki, Rusiya Gürcüstan vətəndaşları üçün viza rejimini tam ləğv etdi. Bu gün Gürcüstan vətəndaşları diplomatik, rəsmi, şəxsi, işgüzar, turizm, humanitar məqsədlərlə, eləcə də qısamüddətli təhsil məqsədilə hər 180 gündən 90 günədək Rusiyada vizasız qala bilərlər. Vizaların tamamilə ləğvi biznesin aparılmasını asanlaşdıracaq, xüsusən də gürcü sahibkarlar Rusiyaya səfər edə və biznes mühiti ilə sakit şəkildə tanış ola, tərəfdaşlıq qura, Rusiyada şirkətləri qeydiyyatdan keçirə biləcəklər. Viza rejiminin ləğvi Gürcüstan vətəndaşlarına qonşu ölkədə qalma müddətini pozmadan Rusiyada qanuni şəkildə iş tapmağa imkan verəcək. Bu, artıq fərqli münasibət, fərqli yanaşmadır. Belə olan halda Rusiya ilə münasibətlərimizi niyə də genişləndirməyək?!

Partiyamız seçdiyi yoldan dönmək niyyətində deyil. Qərbin neqativ reaksiyasına baxmayaraq, yoluna davam edəcək. Bizim haqlı olduğumuzu seçkinin nəticələri də göstərəcək. Qalib gələcəyimizə tamamilə əminəm. Hər halda, həm Rusiya, həm də Gürcüstanın hazırkı hakimiyyəti münasibətlərin inkişafında qərarlıdırlar. Bu da bizim haqlı olduğumuzun göstərir.

**– Ekspertlərin fikrincə, Gürcüstanın Rusiyaya qarşı sanksiyaya qoşulması onun daha çox zərər görməsinə səbəb ola bilər.**

– Tamamilə haqlısınız. Gürcüstanın ən böyük ticarət tərəfdaşları arasında Rusiya ikinci yerdədir. Bu ilin 9 ayı ərzində bu ölkə ilə xarici ticarətin xüsusi çəkisi 10,9 faiz təşkil edib. Bu dövrdə Gürcüstandan Rusiya Federasiyasına mal ixracı 522 milyon dollar (illik ifadədə 2,2 faiz artım), idxal isə 1,3 milyard dollardan çox (mənfi 3,8 faiz) təşkil edib. Beləliklə, 2024-cü ilin yanvar–sentyabr aylarında Gürcüstan və Rusiya arasında ticarət dövriyyəsi 1,8 milyard dollardan çox olub. Bizim tərəfimizdən Rusiyaya sanksiyanın tətbiqi bu bazarın itirilməsi deməkdir. Bu, Gürcüstan iqtisadiyyatının çöküşü olardı. Çünki Gürcüstan malları üçün Rusiya bazarını Qərb bazarları əvəz edə bilməz. Həm Rusiya, həm də Gürcüstanın hazırkı hakimiyyətləri münasibətlərin inkişafında israrlıdırlar. Rusiya bazarı Gürcüstan üçün vacibdir. Gürcü məhsulları Rusiyada məşhurdur, onu yaxşı tanıyırlar.

***Söhbəti qələmə aldı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## “Nazione” partiyası Korsikaya azadlıq tələb edir



**Korsikanın “Nazione” partiyası adından Petr'Anto Tomasi Ayaççoda keçirdiyi mətbuat konfransında adanın BMT-nin özünüidarə etməyən ərazilər siyahısına daxil olunması tələbini səsləndirib: “Fransa Konstitusiyasının bizə rəva bilmədiyini beynəlxalq hüquqda və Birləşmiş Millətlər Təşkilatında axtarmaq niyyətindəyik”.**

P.Tomasi bəyanatı Korsika Assambleyası tərəfindən bu adanın özünüidarə etməyən ərazilər siyahısına (müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər) daxil olunmasını tələb edən vəsatətin araşdırılmasından bir gün əvvəl verib. Bu vəsatət cari ilin yanvarında Korsika Assambleyasının deputatı Jozefa Ciakometti-Piredda tərəfindən irəli sürülüb. O bildirib ki, institusional ardıcıllıq Korsika xalqının gələcəyi və torpaqlarında yaşamaq hüququ üçün həlledici elementdir.

“Nazione” partiyası adanın “müstəmləkəsizləşdiriləcək ərazi” olmasına səs vermək üçün Korsika Assambleyasına çağırış edib. Partiya bəyan edir ki, Korsikanın BMT-nin müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər siyahısına daxil olunmasını hazırda davam edən muxtariyyət prosesi ilə müqayisə etmək əbəsdir. Jozefa Ciakometti-Pireddanın fikrincə, Korsikanın müstəmləkə olduğunu və beləliklə, dekolonizasiya edilməli olduğunu söyləmək suverenliyə və müstəqilliyə dair qərar vermək hüququ baxımından dövlətlə müzakirə üçün vacib amildir.

Bildirilir ki, Korsika BMT-nin özünüidarə etməyən ərazilər siyahısına daxil olmaq üçün bütün hüquqi və siyasi tələblərə cavab verir.

***XQ***

**25 Oktyabr Qubadlı Şəhər Günüdür**

# Qaçaq Nəbinin yurdu azad nəfəs alır

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Ordusu Qubadlı şəhəri uğrunda ağır döyüşlərdə məhz yüksək səriştə və misli-bərabəri olmayan hünər və fədakarlıq göstəribdir. İlk növbədə, düşmənin atəş nöqtələri məhv edilib, ətrafda yerləşən kəndlər, o cümlədən, Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu yaşayış məntəqələri düşməndən təmizlənib. Ondan sonra oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri Qubadlı şəhərinə daxil olaraq oradan düşməni qovublar.

Həmin gün xalqımıza bu tarixi müjdə elan olunanda bütün soydaşlarımız, xüsusilə də 27 il ata-baba yurdlarına həsrət qalan qubadlılılar dünyalar qədər sevinmişdilər. Qubadlının hörmətli ziyalılarından Razim Əliyev həmin anları xatırlayarkən






söylədi ki, o, şəxsən bunu özünün 70 illik ömrünün ən unudulmaz anları sayır və qəlbinin dərinliklərində təkcə "buna görə bu dünyada yaşamağa dəyərdi" deyir.

Razim müəllimi razı salan həm də odur ki, Azərbaycan dövləti cəbhənin Qubadlı istiqamətində əldə edilən bu parlaq uğuru əbədiləşdirmək qərarına gəlib. Belə ki, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə 25 Oktyabr Qubadlı Şəhəri Günü elan edilib. "İllər, qərinələr keçsə də, Qubadlının bugünkü və sonrakı nəsilləri Vətən müharibəsinin qəhrəmanlarının bu böyük şücaəti ilə sonsuz qürur duyacaqlar", – dedi sözünün yekununda R.Əliyev. Və bu sözləri deyən zaman onun səsi sevincdən titrədi və gözləri yaşardı...

Qeyd etmək lazımdır ki, Qubadlı ölkəmizin olduqca gözəl, əsrarəngiz təbiəti olan bir bölgəsidir. Uca dağları, sıx meşələri, sərin bulaqları, Həkəri və Bərgüşad kimi bol sulu çayları, bərəkətli torpaqları var bu cənnətməkanın. Amma buranın ən böyük sərvəti, əlbəttə, mərd, qeyrətli, əmək və yurdsevər insanlarıdır. Onlar bu gözəl və bərəkətli torpaqlarda əbədi qurub-yaradacaqlar.

Bəli, bu gün Qubadlı azaddır, xoşbəxtdir. Qubadlılılar həm də qədirbilən insanlardır. Burada heç kim bir an belə unutmur ki, xalqımız doğma Qarabağın hər bir qarış torpağı kimi, Qubadlını da Vətən naminə canlarından keçən şəhidlərimizin qanı hesabına azad edib. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimə şəfqət versin!

Torpağı azad edən mərd oğulların, bütün igidlərin adları, əməlləri uşaqdan-böyüyə hər kəsin dilində, ürəyindədir. Bu cərgədə ən öndə duranlardan biri də hələ 2016-cı il Aprel döyüşlərində böyük şücaətlər göstərmiş, Qubadlı uğrunda döyüşlərdə qeyri-adi qəhrəmanlıq nümayiş etdirərək həlak olmuş, Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovdur. Şükür 44 günlük savaşda parlaq qələbəmizin əfsanələrindən birinə çevrilib.

Təsadüfi deyil ki, Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı rayonunun ziyalıları ilə görüşü zamanı Şükür haqqında sonsuz bir qürurla söz açaraq demişdir: "Şükür Həmidov bizim ən istedadlı və cəsarətli hərbçilərimizdən biri idi. O, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərmişdi. Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim. Ondan sonra keçmiş məcburi köçkünlərlə ilk görüş əsnasında onun atası Nəriman kişi ilə tanış oldum və bilmirdim ki, o, Şükürün atasıdır. Köçkünlər üçün salınmış bir şəhərciyin açılışında mənə dedi, mən də salamlarımı çatdırdım.... Eşidəndə ki, Şükür həlak olub, bizim hamımızın ürəyi ağrıdı".

Ali Baş Komandan fəxrlə onu da qeyd etmişdir ki, Şükür bütün hərbçilərimiz, gənc nəsil üçün nümunədir, çünki Şükür Həmidov öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb. Azərbaycan xalqı və dövləti şəhidlərimizin xatirəsini daim əziz tutur və əbədi belə olacaqdır.

Məlumdur ki, Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15 min 189 hərbi qulluqçusu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şərqi Zəngəzurun bir parçası olan Qubadlıda işğaldan azad edilən digər ərazilərimizdə olduğu kimi hazırda böyük tikinti-quruculuq işləri görülür. Bir-birindən gözəl yollar çəkilir, evlər, məktəblər, xəstəxanalar ucaldılır.

Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş, 2022–2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra edilir.

Qubadlıdan olan Mahir Babayev adlı həmkarım bu günlərdə dedi ki, bütün bunları görəndə, müşahidə edəndə adamın ürəyi sevincindən köksünə sığmır. Bu gün sürətlə inkişaf və tərəqqi edən Azərbaycan vətəndaşı olmaq həqiqətən böyük səadətdir!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Zəfər marafonunun 29-cu günü**

# Vətən müharibəsinin xronikası: 25 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**



• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib.

Dövlətimizin başçısı operativ müşavirədə çıxış edərək bildirib: "Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır".

Ali Baş Komandan daha sonra qeyd edib ki, işğal olunmuş torpaqlarımızın bir hissəsi Vətən savaşının gedişində işğalçılardan azad edilib, 100-dən çox yaşayış məntəqəsi – şəhərlər, kəndlər işğalçılardan geri alınıb. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıb.

Bu şəhər və kəndlərimizin videogörüntüləri Azərbaycan ictimaiyyətinə təqdim edilir və hər kəs görə bilər ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Bir dənə də salamat bina qalmayıb, bütün binalar, evlər, inzibati binalar, sosial



obyektlər, tarixi-dini abidələrimiz mənfur düşmən tərəfindən dağıdılıb. İşğal edilmiş torpaqlar və dağıntılar erməni vandalizminin canlı şahidləridir. Ermənistan dövləti bu cinayətlərə görə məsuliyyət daşıyır və cavab verəcəkdir.

• Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

• Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibə verib.

Dövlətimizin başçısı müsahibədə jurnalistin – "Bir çox məlumatlara görə, sentyabrın 27-də – müharibənin bu ən son mərhələsində Dağlıq Qarabağ regionunda nisbi sülh var idi, müəyyən növ diplomatik çərçivə var idi, insanlarda bu münaqişənin həll edilməsi ilə bağlı ideya var idi, lakin Sizin qüvvələr döyüşlərə başladı. Nəyə görə Siz indi hərəkətə keçməyə qərar verdiniz?"-sualına cavabında burğulayıb: "Sentyabrın 27-də döyüşlərə başlayan Azərbaycan olmamışdır. Bu vaxta kimi heç bir ölkənin rəsmi nümayəndəsi bu məsələni bizim qarşımızda qaldırmayıb. Sentyabrın 27-də hücuma keçən Ermənistan olmuşdur və məqsəd danışıqlar prosesini tamamilə pozmaq idi. Onlar az və ya çox eyni hərəkəti iyul ayında da etmişdilər. O zaman onlar Ermənistan-Azərbaycan dövlət sərhədində bizim qüvvələrimizə hücum etdilər. Onlar acı məğlubiyyətlə üzləşdilər.

Sonra onlar avqustda hərbi mövqelərimizə nüfuz etmək, mülki şəxslərimizə və hərbi qulluqçularımıza hücum etmək üçün diversiya qrupu göndərdilər".

Ölkə rəhbəri müsahibədə sentyabrın 27-si səhər saatlarında Ermənistan ordusunun ağır silahlardan artilleriya bombardmanına başladığını və hücumun ilk saatlarında bizdə mülki şəxslər və hərbi qulluqçular arasında qurbanlar olduğunu diqqətə: "Bu vaxta kimi mülki şəxslər arasında 63 nəfər öldürülmüşdür və demək olar ki, 300 nəfər mülki şəxs yaralanmışdır. Beləliklə, bu hücuma başlayan Ermənistan idi, biz özümüzü müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız çox adekvat olmuşdur və nəticədə biz işğal olunmuş ərazilərin mühüm hissəsini azad edə bildik".

• Müdafiə Nazirliyinin məlumatına əsasən, cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib. Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərində yerləşən bölmələri canlı qüvvə baxımından çoxsaylı itkilərə məruz qalıb. Azərbaycan Ordusu düşmənin 3 tankını, 2 piyada döyüş maşınını, 6 artilleriya qurğusunu, 1 "Qiasint-B" topunu, 2 "Qrad" qurğusunu, 1 komanda idarəetmə məntəqəsini, 9 avtomobil texnikasını və bir neçə atəş nöqtəsini məhv edib.

• Müdafiə Nazirliyi Azərbaycan Ordusunun düşmənə qarşı yüksək dəqiqlikli silah növü tətbiq etməsi barədə video paylaşıb.

• Müdafiə Nazirliyi Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Düşmənin atəş nöqtələri məhv edilib.

• Ermənistan ordusu Goranboyun Meşəli kəndinə qadağan olunmuş raket atıb.

• Qubadlı istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilib.

• Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilib.

***XQ***

# Qubadlı şəhidlərinin ailələri də başlarını dik tutublar

**Hərb tariximizə Əliyar Əliyev, Kərəm Mirzəyev, Şükür Həmidov, Faiq Qasımov, Vüqar Ağayev kimi onlarla qəhrəman bəxş etmiş Qubadlı rayonunda da Vətən uğrunda döyüşlərdə canlarından keçmiş, sağlamlıq imkanlarını itirmiş şəxslərin ailələrinin sosial vəziyyəti hər zaman diqqətdə saxlanılır, onlar xüsusi qayğı ilə əhatə olunurlar.**

Qubadlını erməni işğalından azad edilməsinin 4-cü ildönümü, 25 oktyabr – Qubadlı Şəhəri Günü ərəfəsində rayonda bu sahədə görülən işlərlə maraqlandıq. İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsindən XQ-yə verilən məlumata görə, erməni işğalçılarına qarşı döyüşlərdə rayon sakinlərindən 250 nəfər şəhid olub, 281 nəfər isə sağlamlıq imkanlarını itirib.

Ümumilikdə, 1946 qubadlılı müharibə veteranı kimi qeydiyyata alınıb. İtkin düşmüş hərbi qulluqçuların sayı 13 nəfər olub. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyəti nəticəsində cari ilin ilk yarısında onlardan 1 nəfərinin nəşi tapılıb, ailə üzvlərinin razılığı və Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sumqayıt Şəhidlər xiyabanında dəfn edilib.

Qubadlılılar həm I Qarabağ müharibəsinə, həm də şanlı qələbəmizlə başa çatmış



Vətən Müharibəsinə və ondan sonrakı hərbi əməliyyatlara torpaqlarımızı mənfur düşmən tapdağından azad etmək əzmi ilə qatılıb, çoxsaylı qəhrəmanlıq nümunələri göstəriblər. Onların bu xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilib. Belə ki, rayonun 14 sakini (əksəriyyəti ölümündən sonra – M.R.) Azərbaycanın Milli Qəhrəmanı və Vətən Müharibəsi Qəhrəmanı kimi yüksək fəxri adlarla, həmçinin döyüşlərdə şücaət göstərmiş, igidlik və mərdliklə vuruşmuş müharibə iştirakçıları ali ordenlərlə və çoxsaylı medallarla təltif ediliblər.

Qubadlı İcra Hakimiyyətinin rəhbərliyi də rayonun şəhid olmuş sakinlərinin ailə üzvlərinin sosial vəziyyətlərini daim diqqətdə saxlayır, il ərzində mütəmadi olaraq onların evləri ziyarət olunur, əziz xatirələrini uca tutmaq üçün anım və doğum günləri, yubiley tədbirləri dərin hörmətlə qeyd edilir. RİH tərəfindən Sumqayıt şəhərində 7 yerdə şəhidlərimizin, o cümlədən, Milli Qəhrəmanların və Vətən Muharibəsi Qəhrəmanlarının barelyefləri və abidələri ucaldılıb, xatirə kompleksləri yaradılıb. Şəhid ailələrinin maddi rifah halının yüksək tutulması da diqqətdə saxlanılır. Belə ki, RİH başçısını sərəncamına əsasən, hər il olduğu kimi, bu il də 27 sentyabr – Anım günündə ehsan verilməsi üçün 11 Vətən muharibəsi şəhidi ailəsinin hər birinə 500 manat birdəfəlik maddi yardım edilib. Ordumuzun 2023-cü il 19-20 sentyabrında Qarabağdakı erməni separatçılarına qarşı keçirdiyi lokal antiterror tədbirləri zamanı şəhid olmuş 1 nəfər Qubadlı sakininin il mərasiminin keçirilməsi üçün isə ailəsinə 2500 manat vəsait təqdim olunub. Bütün bunlarla yanaşı, Vətən muharibəsi zamanı əlil olmuş 7 nəfərdən 1 nəfəri maşın və yeni mənzillə təmin edilib.

Rayonda şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının məşğulluq məsələləri də mərhələli şəkildə həll edilir. Belə ki, Vətən muharibəsi iştirakçısı olan 2 rayon sakini dövlət qulluqçusu, 2 nəfər hakim, 3 nəfər orta məktəblərdə müəllim vəzifələrinə götürülüblər. Orta təhsilli 12 nəfər qazi isə müxtəlif peşə ixtisasları üzrə işlə təmin olunub.

Şəhid ailələri və qazilərin yeni mənzillərlə və işlə təminatı Qubadlı rayon rəhbərliyi tərəfindən daim diqqətdə saxlanılır və zərurət yarandığı halda hər hansı bir məsələ ilə bağlı aidiyyəti dövlət qurumlarına müraciətlər edilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# Elmi ideya intellektual milli sərvət kimi

**I MƏQALƏ**

**KİV-ə nəzarət edən zəkaya da nəzarət edir.**

**Cim MORRİSON**



## Böyük dövlətlərin elm siyasəti

Dünya doğrudan da dəyişir. Dövlətlər iradəsini ortaya qoyur, müxtəlif yeni təsir üsullarından istifadə edərək, nüfuz dairəsini genişləndirməyə çalışırlar. Total olaraq rəqabət həm güclənir, həm də məzmun və məqsədcə yeniləşir. Bu gedişatın təkanverici güclərindən biri kimi elmi göstərirlər. Daha doğrusu, “elmi ideya kimlərdə varsa və o, yeniləşirsə, güc ondadır” düşüncəsi hakimdir. Elmin insan həyatına və o cümlədən, cəmiyyətlərin və dövlətlərin fəaliyyətinə bu dərəcədə nüfuzu keçən əsrin ikinci yarısından alimlər və siyasətçilər tərəfindən vurğulanırdı. Ancaq XXI əsrin gəlişi ilə məsələ daha da dərinləşdi və etiraf edək ki, xeyli həyəcan yaratdı. Çünki getdikcə aydın olur ki, elmi ideyadan siyasi məqsədlərlə istifadə tendensiyasının artması son dərəcə təhlükəli gedişat yaradır.

İndi Qərbdə çox sayda filosof, metodoloq və konkret elm mənsubları siyasi sistemin elmi fəaliyyəti öncədən planlaşdırılan istiqamətə yönəltdiyinin mümkün fəsadlarını intensiv surətdə araşdırırlar. Onların etirazı bundan ibarətdir: müasir elmi kəşflərdən bəhrələnən yeni texnoloji tətbiqlər faktiki olaraq, alimin birbaşa gerçəkliyi dərk etməsindən yayındırır. Virtual dünyada öncədən planlaşdırılmış qaydada elə informasiyalar şəbəkəsi yaradırlar ki, tədqiqatçı ideyanı həmin şəbəkə əsasında axtarmalı olur. Yəni bəri başdan, xüsusi məqsədlə özəl bir informasiya dünyası formalaşdırırlar və araşdırmaçı, avtomatik olaraq, həmin informasiya bazası əsasında “elmi axtarışda” olur.

Belə hallar öncəki tarixi dönəmdə olmamışdır. Əlbəttə, İ.Sina, N.Tusi, İ.Nyuton və ya A.Eynşteyn yaşadıqları dövrün informasiya-kommunikasiya potensialının verdiyi çərçivədən kənara çıxa bilməzdilər. Frensis Bekonun “Yeni Orqanon” əsərinin fəlsəfi və elmi dəyərini də məhz onun yaşadığı dövrün elmi təfəkkürünün xüsusiyyətləri izah edir. Lakin onların heç biri öncədən təşkil edilmiş və görüntü (virtual) xarakterli informasiya qaynağından yararlanmamışdır.

İndiki vəziyyətin fərqli cəhəti ondan ibarətdir ki, informasiya qaynağı xüsusi məqsədlə elmə daxil olmayan dairələr tərəfindən idarə edilir – onlar üçün nə sərf edirsə, onu virtual dünyaya yerləşdirirlər. Alimlərin və filosofların etirazları bunadır. Çünki elmi təfəkkür, faktiki olaraq, təbii qaynağından uzaqlaşır və kənardan olan diktə əsasında özünü təsdiq etməli olur. Bu prosesin qarşısı alına bilərmi? Təəssüf ki, indiki reallıq prizmasında mümkünsüz görünür. O halda müstəqil dövlət olaraq nə etmək olar?

## Qərb nümunəsi

İndi məsələyə günümüzün real faklarından baxaq. Sizcə, indi tez-tez işlədilən “Amerika ideyası”, “Çin ideyası”, “Rusiya ideyası” kimi metaforların əsl mənası nədən ibarətdir? Axı ideya özlüyündə etnik və milli kökənli deyildir. Ümumiyyətlə, insan şüurunun yarada bildiyi məfhumdur, anlayışdır, “şüuri təcrübədir”. Bu keyfiyyətdə ideya etnik və ya milli ola bilməz. Ancaq yuxarıda vurğuladığımız terminlər işlədirlir və həm də çox müxtəlif kontekstlərdə beyinlərə yeridilir.

Bundan başqa, prosesin praktiki aspekti də önəmlidir. Biz müasir dövrdə elm adamları ilə bağlı aparılan siyasəti nəzərdə tuturuq. Məsələn, ABŞ, Avropa dövlətləri, Çin, Yaponiya, Sinqapur, Rusiya və başqa dövlətlər elm adamları ilə bağlı xüsusi siyasət yeridirlər. Deyə bilərəm ki, ABŞ dünyanın istənilən guşəsindən perspektivli elm adamını özünə cəlb edə bilir. Bu proses hətta II Dünya müharibəsi dövründən başlamışdı (fizik Nils Borun oğurlanıb Amerikaya aparılmasını xatırlamaq olar).

Avropa dövlətləri də xüsusi elm siyasəti yeridirlər. Dünya miqyasında təsiri olan ideyaların xeyli hissəsi Avropa mənşəlidir. Orada əsrlərdir ki, elmi kəşflərdən, yeni konseptual ideyalardan haqlı olaraq danışırlar. Avropa elmi təfəkkürü dünya elminə çox ciddi töhfələr vermişdir və bu, davam edir. Əslində, indi ABŞ-yə aid etdiyimiz elm dahilərinin böyük əksəriyyəti Avropa mənşəli insanlardır (hazırda Uzaq Şərq və Latın Amerikası kökənli alimlər də vardır). İndi Avropada elə yüksək araşdırma imkanları olan təşkilatlar və qruplar vardır ki, dünyaya nümunədir. Bunu həm həmin dövlətlərdə sosial-mədəni həyatın təşkili səviyyəsindən, həm də yeni texnologiyalar, süni intellektlər, robotlar v s. istehsalından görə bilərik.

Doğrudur, son zamanlar Avropa dövlətləri Amerika və Çin tərəfindən olan rəqabətin gərginliyindən şikayətlənirlər. Onlar buna qarşı öz tədbirlərini görmələrinin lazım olduğunu rəsmən bəyan edirlər. Nümunə üçün deyim ki, bu ilin sentyabrında İtaliyanın keçmiş baş naziri Mario Draqinin Aİ üçün geniş məruzəsi olmuşdur. Orada müəllif Avropanın rəqəmsallaşdırma, “yaşıl iqtisadiyyat” və sərmayə qoyuluşunda ABŞ və Çindən xeyli geridə qalmasını fəlakət adlandırmışdır. Bu isə birbaşa Avropada elmi ideyaya appelyasiyadır, yəni ilk olaraq elmi səmərəliliyi artırmağın önəminə vurğu edilmişdir. Rəqəmsallaşma və “yaşıl iqtisadiyyat”da geridə qalma elmi fəaliyyətin qüsurları kimi qəbul edilir. Görünür, Avropa həm elmi ideya yaradan, həm də onu çevik tətbiq edən məkan kimi ABŞ və Çindən geridə qalır.

## Uzaq Şərq nümunəsi

Əsas olaraq Yaponiya, Çin, Cənubi Koreya və Sinqapur elm siyasətində bacarıqlıdırlar. Onların sırasında Çinin və Cənubi Koreyanın yeri ayrıcadır. Çin ABŞ-dən fərqli olaraq perspektivli elm adamlarını özünə cəlb edib ölkəsində çalışdırmadı. Çin elmi ideyaları oğurladı. Onun yaratdığı geniş kəşfiyyat şəbəkəsi, Qərbin dəfələrcə etirazına baxmayaraq (Angela Merkel bir neçə dəfə Çinə səfərində bu məsələni qaldırmışdı), Pekin “ideya oğrusu” olaraq qaldı. Lakin bu, bir mərhələyə qədər oldu. Çin möcüzəvi şəkildə özü ideya yaradan dövlətə çevrildi. 1998-ci ildə dünyanın aparıcı elm ölkələri sırasında ilk 10-luğa belə daxil olmayan Çin, artıq 2017-ci ilin reytinqində birinci sırada idi. Nəyin hesabına? Elmi ideya yarada bilmək hesabına. Bunu hər kəs etiraf edir.

Cənubi Koreya isə dünyaya sübut etdi ki, elmi ideya generatoru olmaq üçün heç də ərazicə böyük olmağa ehtiyac yoxdur. Əslində, İsrail bunu xeyli öncə sübut etmişdi, ancaq burada söhbət konkret olaraq Uzaq Şərqin ərazicə bir kiçik ölkəsindən gedir. Bundan başqa, İsrailin imkanları ilə Cənubi Koreyanın imkanlarını müqayisə belə etmək olmaz. Çünki yəhudilər dünyanın ən inkişaf etmiş hissəsində maliyyə, siyasət və elmi fəaliyyət baxımından aparıcı mövqedə olmuşlar və indi də elədir. Bir amerikalı Nobel mükafatçısının hansısa tərəfi yəhudilərə bağlıdır və onun etdiyi elmi kəşf dərhal İsrailin intellektual milli sərvəti funksiyasını yerinə yetirir. Əlbəttə, koreyalılar haqqında bunu demək mümkün deyildir. Həmin səbəbdən Cənubi Koreyanın elmi-texnoloji sıçrayışı bir dünya möcüzəsidir. İndi Cənubi Koreya da ideya yaradan dövlətdir.

## Nümunələrin ortaq məqamı

Vurğulanan nümunələrin müqayisəsi, ən azı, iki məqam üzərində düşünməyə məcbur edir. Birincisi, Qərb və Uzaq Şərqin elmi tərəqqiyə fərqli üsullarla nail olduqlarının anlaşılmasıdır. İkincisi, bu fərqliliyə baxmayaraq, yekun nəticənin oxşar olmasıdır. Hər iki aspekt üzərində geniş dayanaq.

ABŞ çox fərqli davranır. Bu dövlət uzun müddətdir ki, kənarda olan “beyinləri oğurlayır”. Sözün həqiqi mənasında, amerikanlar bu barədə çox uğurludurlar. Məcazi mənada desək, Çin ideyanı oğurlayırsa, Amerika ideya qarışıq perspektivli beyini elə oğurlayır ki, ondan dəfələrlə yeni ideyalar ala bilir.

Belə ki, indi nadir hallarda ABŞ-də hər hansı universitet və ya elmi təşkilatın təklifindən gənc və perspektivli alim imtina etsin – dünyanın hansı guşəsində yaşamağından asılı olmayaraq, ABŞ alimləri özünə çəkir. Bəs niyə gənc araşdırmaçılar ABŞ-dən imtina edə bilmirlər? Çünki orada elmi fəaliyyət üçün dünya miqyasında nümunə ola biləcək şərait yarada bilmişlər. Həm iş yeri, həm maliyyəsi, həm də elmi fəaliyyətə olan münasibət dünya alimlərini ora çəkir. Təcrübə göstərir ki, bir yapon, çinli, türkiyəli və ya argentinalı, olsun ki, livanlı Amerikada özünə elmi karyera qurub Nobel mükafatçısı ola bilər. Həmin ölkələrdə dünyaya gəlmiş alimlər sırasında Nobel mükafatını alanlar vardır. Bizim fəxr etdiyimiz türkiyəli Əziz Səncər onlardan biridir. Və yaxud Türkiyədə dünyaya gəlmiş erməni kökənli Daron Əcəmoğlu (iqtisadiyyat üzrə) bu il Nobel mükafatını almışdır. Onun həyat yoldaşı da türkiyəlidir.

Burada bir məqam da vardır. ABŞ-də bir çinli Nobel mükafatı almışdır (Əziz Səncərlə eyni ildə). Lakin ona bərabər səviyyədə olan çinlilər Çində işləyərkən Nobel ala bilmirlər. Eyni zamanda, Çin faktiki olaraq, kollektiv elmi yaradıcılıqda artıq ABŞ-ni qabaqlayır. Buna baxmayaraq, bu irəliləyiş Nobel mükafatı almaqda əksini tapmır. Bu, bir paradoksdur. Görünür, burada Qərb alimlərini də narahat edən siyasətin elmə çox nüfuz etməsi ilə bağlı məqamlar mövcuddur.

Vurğuladığımız özəlliklər fonunda meydana bir sual çıxır – müxtəlif ölkələrdən olan və Nobel mükafatı alan alimlər “ideya” olaraq kimə məxsusdur? Məsələn, Ə.Səncər və ya D.Əcəmoğlunu Türkiyənin intellektual milli sərvəti hesab etmək olarmı? Burada da fərqli reallıq vardır. Ə.Səncər bir insan, türk və alim olaraq Türkiyəyə və hətta türk dünyasına çox bağlıdır. Amalı türk dünyasının elmdə ilk sıralara çıxmasıdır. Bunun üçün alim kimi əlindən gələni də edir. Ancaq bu dahi alimin elmi ideyası türklərə məxsus deyildir, Türkiyənin intellektual milli sərvəti deyil. Ə.Səncər alim kimi ABŞ-nin “ideyası”dır. D.Əcəmoğluna gəldikdə isə ümumiyyətlə, onun Türkiyəyə hansı elmi aidiyyəti olduğu məlum deyildir. Sadəcə, avtobioqrafiyasında Türkiyədə doğulduğu haqqında qeyd vardır. O heç Ermənistana da “ideya” kimi aid deyildir. D.Əcəmoğlu elm adamı və elmi ideya müəllifi kimi ABŞ-nindir.

Bunlardan hansısa etnik və mədəni yanlışlıq nəticəsi alınmasın. Məqsəd ondan ibarətdir ki, hər bir dövlətin elmi ideyanı özününkü etməsi üçün böyük anlamda həmin ideyanı özündə yaratmalıdır. Əlbəttə, bu, o demək deyildir ki, yeni ideyadan, məsələn, Ə.Səncərin elmi kəşfindən Türkiyə və ya Azərbaycan yararlana bilməz. Təbii ki, yararlana bilərik. Lakin ideya yaradan ölkə olmaq başqa şeydir. Tam olaraq, Ə.Səncərin elmi ideyası bütün incəliklərinə qədər amerikan elmi təfəkkürünə və həm də elmi fəaliyyət sisteminə “hopmuşdur”. Bu mənzərəyə, bütövlükdə, müasir amerikan elminin sistemi prizmasında baxsaq, ABŞ-də işləyən Nobel mükafatçılarının “elmi ideya” kimi həmin sistemin bir parçası olduğunu görürük. Həmin keyfiyyətdə də onların elmi ideyaları ABŞ-də yeni səviyyədə elmi ideyalar yarada bilir. ABŞ uzun müddətdir ki, bu zəncirvari prosesin üzərində bərqərar olan elmi ideyalar məkanıdır!

## Elmi ideyanın Amerika variantı

Vurğuladığımız məqamlardan ABŞ üçün xarakterik olan ideya yaratmaq məkanı olmanın mexanizmi haqqında təsəvvür əldə edə bilərik. Belə görünür ki, ABŞ elmi sferada özünəxas “bəşərilik şəbəkəsi”ni qura bilmişdir. Bu dövlət həm öz daxilində elmi infrastrukturu davamlı inkişaf etdirir, həm də fərqli elmi təfəkkür sahiblərini Amerikada işlətməklə “elmi təfəkkürü” yeniləşdirir. Obrazlı desək, yaradıcılığa “yeni nəfəs verir, alimlik qanını təzələyir”. Bu da bir tərəfdən, ABŞ-ni dünya miqyasında elmi ideya yaratmaqda ön sırada saxlayır, digər tərəfdən isə sanki bütün dünyanı əhatə edən “elmi yaradıcılıq üsulunun idraki nəbzini tutur”. Bu xüsusiyyətinə görə, ABŞ elmi ideya qaynağı kimi digərlərindən, məsələn, Çin və Cənubi Koreyadan fərqlənir. Deməli, biz ayrıca Çin və ya Koreyanın ideya qaynağı olma üsulundan danışa bilərik. Sonucda bu müqayisələr Azərbaycanın elmi ideya məkanı ola bilməsi imkanını yaradır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Günün sualı**

# Distant təhsilə keçidə nə mane olur?

## *Ölkəmizin bu sahədə yetərli təcrübəsi var*

**İnformasiya texnologiyalarının, proqram-texniki vasitələrin geniş inkişaf etdiyi dövrdə, eyni zamanda, qloballaşma mühitində təhsilin əyani və qiyabi formaları ilə yanaşı, distant təşkili ideyası da tez-tez eşidilir.**



Xarici dövlətlərin çoxunda qəbul olunmuş məsafədən öyrətmənin tarixi İsaak Pitmanın poçt məktubları vasitəsilə Birləşmiş Krallıqda stenoqrafiyanı yaydığı 1840-cı ilə dayanır. Bu təhsil 1970-ci illərə qədər çap materiallarına əsaslanırdı. Texnologiyanın inkişafı uzaq məsafələri yaxınlaşdırıb, ünçatan, əlyetən edib. Bu gün hər kəsin istifadə etdiyi, internetə çıxışı olan kompüter, yaxud smartfon kifayət edir ki, məsafədən təhsilə qoşula biləsən.

Təhsilin onlayn forması işləyən, uzaq məsafədə yaşayan, ailəli insanlar üçün yeni imkanlar yaradır. Mütəxəssislərinin fikrincə, bu, ənənəvi formalara nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal şəkildə inkişaf etdirir. Beynəlxalq statistikaya görə, distant təhsil alanların əksəriyyəti yaşı 25-i ötmüş, işdən ayrılmadan peşəkar nəzəri biliklərini genişləndirmək istəyənlərdir. Azərbaycanda distant təhsil 19 iyun 2009-cu ildə qəbul olunmuş “Təhsil haqqında” Qanunda təsbit olunub. Sənədin 13-cü maddəsinə əsasən, ölkəmizdə əyani, qiyabi, sərbəst (eksternat) təhsil formaları ilə yanaşı, distant (məsafədən) öyrənmə üsulu da var. Lakin müvafiq zəruri prosedurlar hələ ki, işə düşməyib.

Təcrübə göstərir ki, distant təhsil ənənəvi sistemdən xeyli ucuz başa gəlir. Təhsil müəssisələri icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edir. Tədrisi həyata keçirmək üçün ayrıca otaqlar və kompüterlər tələb olunmur. Mobilliyi təmin edən distant təhsilin daha bir üstünlüyü odur ki, tələbələr müstəqil məşğul olurlar.

Elm və təhsil naziri Emin Əmrullayev müvafiq açıqlamasında vurğulayıb ki, distant təhsilin bu və ya digər şəkildə tanınması üçün zəruri şərt həmin proqramın akkreditasiya olunmasıdır: “Azərbaycanda hazırda keyfiyyət təminatı almış distant tədris proqramı yoxdur. Bu istiqamətdə qanunvericilik bazasının formalaşması üçün Milli Məclisin Elm və təhsil komitəsi ilə birgə işlər görülür. Distant təhsil tədrisin yalnız formasıdır, orada verilən bilik və bacarığın diplomla tanınması üçün həmin proqram mütləq qaydada keyfiyyət təminatı sistemindən keçməlidir. Yəqin ki, zamanla bu istiqamətdə irəli gedəcəyik. Amma heç bir formatda distant təhsilin diplom paylanılması və ya qeyri-qanuni diplom alınmasına çevrilməsini istəmirik. Əgər bunu edəcəyiksə, dünya miqyasında qəbul olunmuş standartlar çərçivəsində etməyi düşünürük”.

Distant təhsilin ölkəmizdə tətbiqini gərəkli sayan ekspert Elçin Əfəndinin fikrincə isə, Azərbaycanda bu formanın həyata keçirilməsi gecikir: “Distant təhsil qiyabidən daha üstündür. Bu səbəbdən daha çox magistratura səviyyəsini bu formada təşkil etmək lazımdır. Magistraturada oxumaq istəyənlər, əsasən, əmək fəaliyyəti ilə məşğul olurlar. Onlar üçün hələlik ən uyğun təhsil forması qiyabidir. Amma distant təhsil ondan daha sərfəli və səmərəlidir. Distant təhsili yaradırıqsa, nəzarət mexanizmi tətbiq olunmaldır ki, hər şəxs diplomun tanınması ilə bağlı saxtakarlığa əl atmasın”.

Xatırladaq ki, ölkəmiz pandemiya dövründə artıq distant təhsil formasını sınaqdan keçirib. COVID19 zamanı ölkənin təhsil müəssisələrinin kollektivləri məsafədən tədris üzrə yetərli təcrübə qazanıblar. Mövcud imkanlar distant təhsilə keçidi sürətləndirməyə əsas yaradır.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

---

# “İqlim dəyişiklikləri və enerji hüququ”



**Oktyabrın 24-də Bakı Konqres Mərkəzində dünyanın müxtəlif ölkələrindən gələn 50-dən çox beynəlxalq hüquqşünasın iştirakı ilə “ICE Baku 2024: İqlim dəyişiklikləri və enerji hüququ” mövzusunda beynəlxalq konfrans işə başlayıb.**

Üçgünlük konfrans Gənclər Fondunun maliyyə dəstəyi, COP29 Azərbaycan Əməliyyat Şirkəti, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi, Bakı Ali Neft Məktəbi və Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının tərəfdaşlığı ilə keçirilir.

Açılış mərasimində Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Vəkillər Kollegiyasının sədr müavini, Hüquqi Yardım Mərkəzinin direktoru Şahmar Məmmədov, ədliyyə nazirinin müşaviri Seyfəlpaşa Əliyev, COP29-un Gənc İqlim Çempionu Leyla Həsənova, “ELSA Azərbaycan”ın prezidenti Nazim Çələbiyev, Seminarlar və Konfranslar üzrə vitse-prezident Tünzalə Mustafazadə çıxış ediblər.

Toplantıda COP29-a Azərbaycanın evsahibliyi etməsinin əhəmiyyəti, beynəlxalq miqyasda iqlim siyasətinin inkişafında ölkəmizin rolu xüsusi diqqət mərkəzində olub. İştirakçılar gənclərin və gənclər təşkilatlarının iqlim dəyişikliyinə qarşı mübarizədə fəal iştirakının vacibliyini vurğulayıblar. Gənclərin müasir problemlərə yanaşma tərzinin dəyişdiyi və bu mübarizədə onların səsinin artırılmasının zəruriliyi diqqətə çatdırılıb.

“ICE Baku 2024” iqlim dəyişiklikləri və enerji hüququ sahəsində beynəlxalq müzakirələri genişləndirmək və bu sahədəki qanunvericilik yeniliklərinə diqqət çəkmək məqsədi daşıyır.

***XQ***

# Mikromaliyyələşdirmə modelinə dəstək

**Son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb.**



Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması onların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.

Bütün bunlar barədə Bakıda "Dayanıqlı mikromaliyyə üçün innovativ həllər" mövzusunda keçirilən konfransda da ətraflı danışılıb. Azərbaycan Mərkəzi Bankının baş direktoru Toğrul Əliyev toplantıda təmsil etdiyi maliyyə qurumunun hazırda bank olmayan kredit təşkilatları üçün prudensial tənzimləmə normalarının yenilənməsi üzərində çalışdığını bildirib. Eyni zamanda, mikromaliyyələşdirmə modelinin formalaşdırılması başa çatdıqdan sonra isə bu sektorda fəaliyyət göstərən institutlara əlavə maliyyə xidmətlərinin göstəriləcəyini, eləcə də onların rəqabət qabiliyyətinin artırılmasının gerçəkləşəcəyini qeyd edib.

Baş direktor vurğulayıb ki, bu təşəbbüslərin əsas məqsədi ölkəmizdə mikro və kiçik sahibkarlığın inkişafıdır. Mərkəzi Bank isə rəqəmsal texnologiyaların tətbiqi məsələlərinə də ciddi diqqət yetirir. Rəqəmsal texnologiyaların mikromaliyyələşdirmə sektorunda, həmçinin, ümumilikdə, maliyyə sektorunda tətbiqi Mərkəzi Bankın strategiyasında xüsusi yer tutur. Bank informasiya təhlükəsizliyinin təmin olunmasına və kibertəhlükəsizlik problemlərinin adekvat idarə edilməsinə xüsusi önəm verir. Bu baxımdan rəqəmsal maliyyə təşəbbüsləri, xüsusi tənzimləmələr, açıq bankçılıq, rəqəmsal identifikasiya və kibertəhlükəsizlik təşəbbüslərini əhatə edən ayrıca fəaliyyət planının icrası strategiyada böyük əhəmiyyət daşıyır.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu İdarə Heyətinin sədri Osman Xaliyev konfransda respublikada özəl bölmənin davamlı tərəqqisinin prioritet xarakter daşıdığını qeyd edib. Son 2 il ərzində rəhbəri olduğu qurumun iş adamlarına 3,2 milyard manatdan çox güzəştli kredit ayırdığını bildirib: "2022-ci ildən indiyədək Sahibkarlığın İnkişafı Fondu sahibkarların 50 mindən çox güzəştli kredit müraciətini gerçəkləşdirib.

Hazırda fond 40 müvəkkil kredit təşkilatı ilə əməkdaşlıq edir. Gələcək illərdə daha çox subyektə güzəştli kreditlərin daha səmərəli və sürətli şəkildə verilməsi, eləcə də mikromaliyyə təşkilatları da daxil olmaqla, daha çox səlahiyyətli kredit təşkilatları ilə əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur. Fond artıq bu istiqamətdə bir sıra təkmilləşdirmələr həyata keçirib. 2021-ci ildən etibarən tələb olunan sənədlərin sayı minimuma endirilib. Həmçinin adıçəkilən maliyyə qurumu 200 min manata qədər kreditlər üçün biznes plan təqdim etmə tələbi ləğv edib.

Mərkəzi Bankın Kredit Təşkilatlarının Fəaliyyətinə Nəzarət Departamentinin şöbə rəisi Xəyyam İsmayılov konfransda 2025-ci ilin sonuna qədər Azərbaycanda bank olmayan kredit təşkilatları aktivlərinin 2 dəfə artacağını, bununla da həmin təşkilatların vəsaitlərinin bir milyard manatı keçəcəyini vurğulayıb: "Bu artım bank olmayan kredit təşkilatlarının həmin qurumların mənfəət əldə etməsi və yeni iştirakçıların bazara daxil olması ilə əlaqədardır. Bundan əlavə, bank olmayan kredit təşkilatlarının şəbəkələri də genişlənir. Mikromaliyyələşdirmə sektorunda filialların sayı 302-yə çatması da bunun əyani nümunəsidir. Ümumiyyətlə, banklardan fərqli olaraq, bank olmayan kredit təşkilatlarının regionlarda genişlənməsi daha müsbət xarakter daşıyır. Sektorun əməkdaşlarının sayı 3500 nəfərə, müştəri sayı isə 700 minə çatıb".

Asiya İnkişaf Bankının Azərbaycan üzrə direktoru Sunniya Durrani-Camalı isə mikromaliyyə konfransında təmsil etdiyi maliyyə qurumunun yeni maliyyə məhsulları təqdim etdiyini bildirib. O, 2010-cu ildən etibarən bankın geniş mikromaliyyələşdirmə proqramı həyata keçirdiyini, təxminən, 2,3 milyard dollar həcmində kreditlərə dəstək verdiyini və 1,2 milyard dollar həcmində kofinansmanı cəlb etdiyini vurğulayıb: "Aztəminatlı və həssas icmalara maliyyə daxilolmaları, eləcə də kiçik və orta müəssisələr üçün maliyyəyə çıxış Asiya İnkişaf Bankının iş yerlərinin yaradılması, gəlirlərin artırılması və yoxsulluğun azalması strategiyasının mühüm bir hissəsidir.

2010-cu ildən bank geniş mikromaliyyələşdirmə proqramının icrasına başlayıb, təxminən, 1,8 milyard dollar həcmində kreditlərə dəstək verib və 881 milyon dollar həcmində birgə maliyyələşdirmə cəlb edib. Asiya İnkişaf Bankında 10 milyondan çox müştəriyə mikrokreditlər verilib ki, onların 98 faizi qadınlar olub".

Mikromaliyyə konfransında bank olmayan kredit təşkilatlarının fəaliyyətinin daim diqqətdə saxlanılmasının özəl bölmə subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, dövlət və sahibkarlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, eləcə də qarşılıqlı inam mühitinin yaradılması məqsədi daşıdığı vurğulanıb. Eyni zamanda, sahibkarlığın dəstəklənməsinə xidmət edən maliyyə mexanizmlərinin icrasında Sahibkarlığın İnkişafı Fondu və özəl sektor arasında əməkdaşlığın xüsusi yer tutduğu, qurumun güzəştli kredit, zəmanət və subsidiya, avadanlıq krediti kimi dəstək mexanizmlərinin müvəkkil kredit təşkilatları vasitəsilə icra olunduğu diqqətə çatdırılıb.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, ölkədə özəl bölmənin inkişafı təkcə sahibkarlığın kreditləşməsinin diqqət mərkəzində saxlanılması ilə məhdudlaşmır. Bu sahənin qanunvericilik bazasının möhkəmləndirilməsi, sahibkarlığın inkişafına mane olan inhisarçılıq hallarının aradan qaldırılması, özəl bölmə subyektlərində dövlət qurumları tərəfindən qanunsuz yoxlamalar aparılması və çoxsaylı əsassız lisenziyaların verilməsi kimi neqativ hallara qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi daim diqqətdə saxlanılır, dövlət qurumlarının, həmçinin ayrı-ayrı nazirliklərin fəaliyyətlərində bu problemlərin həllinə xüsusi əhəmiyyət verilir.

Sahibkarlığın inkişafından bəhs edərkən yeni Rəqabət Məcəlləsinin tətbiqi və onun biznes mühitinə təsirləri barədə də danışmaq yerinə düşər. Belə ki, ekspertlərin fikrincə, bu məcəllə artıq sahibkarlığın inkişafının stimullaşdırılmasında önəmli rol oynayır. "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı" isə kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə maneə yaradan amillərin aradan qaldırılmasına xidmət edir.

Ümumiyyətlə, istər Rəqabət Məcəlləsində, istərsə də adıçəkilən Milli Fəaliyyət Proqramı ölkəmizdə rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

# Ölkəmizin sığorta bazarı 9 faiz genişlənib

**Mərkəzi Bankdan aldığımız məlumata görə, cari ilin 9 ayında Azərbaycandakı 17 sığorta şirkətinin xətti ilə 1 milyard 25 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 9,4 faiz çox) sığorta haqqı toplanılıb.**

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 555 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 38,3 faiz çoxdur.

9 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 54,1 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 42,8 manat olub.




# Böyükşordan Pirşağıya çoxzolaqlı yol

**Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq 12,7 kilometrlik 6 hərəkət zolaqlı Böyükşor–Pirşağı avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Hazırda layihə üzrə marşrut boyu yolun sağ və sol kənarlarında mühafizə hasarları qurulur. Eyni zamanda, nəqliyyat və piyadaların təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq yerlərdə əyri xətli tirlər quraşdırılır. Yolun ayın sonuna qədər istifadəyə verilməsi planlaşdırılır.**



Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, indiyədək ərazinin təmizlənməsi, tikinti altına düşən kommunikasiyaların köçürülməsi və qazma işləri görülməklə yeni torpaq yatağının inşası yekunlaşdırılıb. Hazır olan hissələrdə asfaltlanmanın aparılmasına başlanıb. Yolun hər iki tərəfində piyada səkilərinin inşası və yolboyu işıqlandırma sisteminin qurulması da nəzərdə tutulub.

# Bu il 269,7 min mülkiyyət qeydiyyata alınıb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti 2024-cü ilin yanvar–sentyabr aylarında daşınmaz əmlak üzərində 269 min 702 mülkiyyət hüququ qeydiyyata alaraq çıxarışla təmin edib. Xidmətin məlumatına görə, bu göstəricinin 44 min 462-si (16,5 faiz) ilkin, 225 min 240-ı isə (83,5 faiz) təkrar qeydiyyata aid olub.**




Dövlət Xidmətinin məlumatına görə, bu dövrdə qeydiyyata alınan mülkiyyət hüquqlarının 71 min 843-ü Bakının, qalan hissəsi isə bölgələrin payına düşür.

Yanvar–sentyabr aylarında 203 min 56 texniki pasport tərtib edilib, 56 min 730 ipoteka müqaviləsi qeydiyyata alınıb.

# Dünya Bankı Azərbaycanla bağlı qiymətləndirmə aparacaq

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Biznesə daxilolma" işçi qrupunun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva qrupun iclasında bu ilin sonundan etibarən, Dünya Bankının "Business Ready" hesabatı üzrə Azərbaycanın qiymətləndirilməsinə başlanacağını bildirib.**




Onun sözlərinə görə, bu proses çərçivəsində sahibkarlara, ekspert qruplarına və dövlət orqanlarına müvafiq sorğular göndərilməsində əsas məqsəd onlardan düzgün və hərtərəfli məlumatlar almaqdır. S. Musayeva vurğulayıb ki, Azərbaycanda xarici investisiyalı hüquqi şəxslərin qeydiyyatında rəqəmsal yeniliklər tətbiq edilib: "Onların təsisçilərinin xarici fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq, elektron qaydada dövlət qeydiyyatına alınması üçün hüquqi əsaslar yaradılıb. Xarici hüquqi şəxslərin qeydiyyat prosesi tamamilə yerli hüquqi şəxslərin qeydiyyat proseduruna uyğunlaşdırılıb və bu sahədə mövcud fərqlər aradan qaldırılıb. Sahibkarlıq mühitinin inkişafı istiqamətində də bir sıra əhəmiyyətli islahatlar həyata keçirilib. Bununla da həm sahibkarlıq fəaliyyətinə başlamağa, həm də biznesin sonrakı mərhələlərdə səmərəli idarə olunmasına əlverişli şərait yaradılıb. Eyni zamanda, Dünya Bankının "Business Ready" hesabatı əsasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı, mülki və əmək qanunvericiliyində bir sıra dəyişikliklər edilib".

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya katibliyinin rəhbəri, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev isə bildirib ki, Azərbaycanın "Business Ready" hesabatına 2025-ci ilin sentyabrında daxil ediləcəyi gözlənilir. O, Dünya Bankı Qrupunun yeni "Business Ready" hesabatının metodologiyası və qarşıda duran prioritetlər barədə məlumat verib:" Hesabat dünya ölkələrində biznes mühitini özəl sektorun inkişafı kontekstində qiymətləndirir. Layihə ölkədə biznes sahələrinin funksionallığı, bütövlükdə, özəl sektorun inkişafına təsir göstərən biznes qaydaları və dövlət xidmətlərinin müqayisəli qiymətləndirilməsi kimi komponentlərə əsaslanır".

Qeyd edək ki, bu ilin oktyabr ayında 50 ölkənin daxil olduğu yeni hesabatın ilk buraxılışı dərc edilib. Bu hesabat dərci dayandırılan "Doing Business" hesabatını əvəz edəcək və gələn ildən daha çox ölkə iqtisadiyyatlarının əhatə olunacağı gözlənilir.

"Business Ready" hesabatı şirkətlərin fəaliyyətinin başlanması, davam etdirilməsi, bağlanması və ya yenidən təşkili mərhələlərini əhatə edən 10 mövzunu–biznesə giriş, biznesin yerləşməsi, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, vergi, bazar rəqabəti, mübahisələrin həlli və müflisləşməni əhatə edəcək.

# İpoteka və Kredit Zəmanət Fondunun büdcəsi böyüyür

## *I yarımildə qurum 12 milyon manat gəlir əldə edib*

**İpoteka və Kredit Zəmanət Fondunun məlumatına əsasən, fond bu ilin I yarısını 12 milyon manat mənfəətlə başa vurub. Hesabat dövründə qurumun faiz gəlirləri 44,7 milyon manat (illik müqayisədə 18,2 faiz çox), faiz xərcləri 26,1 milyon manat (29,3 faiz çox) təşkil edib.**



Bu il iyulun 1-nə fondun vəsaitləri 3 milyard 87 milyon manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 21,45 faiz çox) olub. Bunun 2 milyard 158 milyon manatı müştərilərə verilmiş ipoteka kreditləridir. Son 1 ildə fondun kredit portfeli 16,2 faiz böyüyüb.

Hesabat dövründə qurumun öhdəlikləri 29,3 faiz artaraq 1 milyard 915 milyon manata, o cümlədən buraxdığı borc qiymətli kağızlarının ümumi dəyəri 29,4 faiz artaraq 1 milyard 882 milyon manata, balans kapitalı isə 10,45 faiz artaraq 1 milyard 173 milyon manata, o cümlədən nizamnamə kapitalı 9,8 faiz artaraq 980,7 milyon manata çatıb.

Xatırladaq ki, İpoteka və Kredit Zəmanət Fondu ölkə Prezidentinin 25 dekabr 2017-ci il tarixli fərmanı ilə, "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu"ASC-lərin birləşmə formasında yenidən təşkili yolu ilə yaradılıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# “Odlar yurdu” bərpaolunan enerji məkanıdır



**Prezident İlham Əliyevin müxtəlif enerji mənbələrinin inkişafı üçün həyata keçirdiyi siyasət, uzaqgörən siyasi qərar və qətiyyətli addımların ardıcıllığı, bir-birini tamamlaması nəinki Azərbaycanın, eyni zamanda tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verir və “yaşıl” enerjiyə problemsiz keçidi gerçəkləşdirir.**

Respublikamızda bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində icra olunan layihələr xüsusilə diqqət çəkir. Son dövrlərdə “Masdar”, “ACWA Power” və “Fortescue Future Industries” şirkətləri ilə 25 QVt həcmində “yaşıl” enerji layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması bunun bariz ifadəsidir. 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri tələbatımızdan, potensialımız isə yaradılacaq güclərdən dəfələrlə çoxdur. 157 QVt külək enerji potensialı olan Xəzər dənizinin ölkəmizə aid sektoru, azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları və Naxçıvan Muxtar Respublikası “yaşıl” investisiya üçün ən cəlbedici məkanlardır.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri ilə zəngin ölkədir. Hesablamalara görə, respublikamızın quruda külək və günəş enerjisi üzrə potensialı, təqribən, 37 qiqavatt təşkil edir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialı isə, təqribən, 157 qiqavata bərabərdir.

Mütəxəssislərin fikrincə, ənənəvi elektrik enerjisi istehsalından “yaşıl” enerjiyə sürətli keçid müəyyən zaman tələb edir. Bu məsələdə investisiya qoyuluşu da zəruri amillərdən biridir. Amma bərpaolunan enerjiyə keçid heç də neft, qaz və kömür kimi enerji mənbələrinin istifadəsinə son qoymaq anlamına gəlmir.

Bu məqamda dünyada alternativ enerji potensialının reallaşdırılması vəziyyətinə də nəzər salmaq istərdik. Bu baxımdan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Azərbaycanda “yaşıl” iqtisadiyyat məsələlərinin elmi cəhətdən araşdırılmasına həsr olunan “Yaşıl iqtisadiyyat” kitabına daxil edilən Aminə Bayramovanın təhlili məqaləsi diqqət çəkir. Müəllif bildirir ki, artan enerji istehlakı fonunda bərpa edilməyən enerji mənbələrinin həm məhdudluğu, həm də ətraf mühit və insan sağlamlığı üçün yaratdığı təhlükə bu enerji mənbələrinə alternativ mənbələrin tapılmasına diqqəti artırır.

İstehlak baxımından dünyada enerjinin böyük hissəsini mineral yanacaqlar təşkil edir. Bu vəziyyət qlobal miqyasda bərpaolunmayan enerji mənbələrindən asılılıq nəticəsində iqtisadiyyata daha çox yük gətirir və atmosferdə istixana qazlarının toplanması nəticəsində iqlim dəyişikliyinə səbəb olur. Bütün bu problemlər fonunda bərpaolunan enerji, başqa sözlə, alternativ enerji mənbələrinin reallaşdırılması zərurəti yaranır.

Alternativ enerji mənbələri tükənməyən enerji mənbəyi sayılmaqla ətraf mühitə zərər vurmaması, enerji diversifikasiyası və nəhayət, enerji təhlükəsizliyinin təmini baxımından mühüm önəm daşıyır. Bərpaolunan enerji təbiətdə mövcud olan və təbiətin daim istehsal edə biləcəyi ehtiyatlar vasitəsilə əldə edilə bilən enerjidir. Ümumiyyətlə, bərpaolunan enerji mənbələri enerji mənbəyindən alınan enerji ilə eyni miqdarda və ya mənbənin tükənmə sürətindən daha sürətli özünü yeniləyə bilən enerji kimi müəyyən edilə bilər.

A.Bayramovanın araşdırmasına əsasən, məcmu ilkin enerji istehsalında bərpaolunan enerji mənbələrinin payı davamlı şəkildə çoxalır, artım faizi isə 2011-ci ildən etibarən sürətlə yüksəlməkdədir. Belə ki, 2019-cu ildə ümumi enerji istehlakında alternativ enerji mənbələrinin payı 5 faiz təşkil edirdisə, 2020-ci ildə bu göstərici 5,7 faiz olaraq müşahidə edilib. Lakin hələ də ümumi enerji istehlakında bərpaolunan enerji mənbələrinin payı azdır.

Ayrı-ayrı bərpaolunan enerji mənbələrinə diqqət yetirdikdə günəş enerjisindən istifadənin 2010-cu ildən etibarən daha sürətlə artdığı müşahidə edilir. Belə ki, 2010-cu illə müqayisədə 2020-ci ildə günəş enerjisi 25 dəfə, külək enerjisi istehsalı isə 5 dəfə artıb. Alternativ enerji mənbələrinin ümumi enerji istehlakındakı payı 2015-ci illə müqayisədə 2020-ci ildə 3,3 faizdən 5,7 faizə yüksəlib. Bu isə neft, qaz və kömür istehlakındakı azalmadan daha yüksək artım kimi qeydə alınıb.

Alternativ enerji mənbələri ilə ənənəvi enerji mənbələrini müqayisə etsək görərik ki, son illərdə neft və kömürün ümumi enerji istehlakındakı payı azalsa da, təbii qazın payı 2015-ci illə müqayisədə 2020-ci ildə 1,7 faiz artıb. Bu isə alternativ enerji mənbələrinin genişləndirilməsi və ənənəvi enerji mənbələrinin “sıxışdırılaraq” azaldılması üçün hələ uzun yol olduğunu göstərir.

2019-cu illə müqayisədə pandemiyanın tüğyan etdiyi 2020-ci ildə Çin və ABŞ-də bərpaolunan enerji mənbələri üzrə həm istehsalda, həm də istehlakda artım müşahidə edilib. Hazırda bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin istehsalına görə lider olan Çin bu göstəriciyə görə ən yaxın rəqibi ABŞ-ni 1,6, Almaniyanı isə 3,7 dəfə qabaqlayıb.

Alternativ enerji mənbələri şərti olaraq 5 yerə bölünə bilər: hidroenerji, bioenerji, geotermal enerji, günəş enerjisi, külək enerjisi. Hidroenerji ən yetkin və ən zəngin bərpaolunan enerji mənbəyidir. Hələ iki min il əvvəl qədim yunanlar taxıl üyüdülməsi üçün hidroenerjidən istifadə edirdilər. Hazırda isə ən sərfəli enerji növlərindən biridir. Hidroenerji dedikdə sudan enerjinin əldə edilməsi nəzərdə tutulur. Hidroenerji kömür və təbii qazdan sonra üçüncü ən böyük mənbə kimi 2020-ci ildə qlobal elektrik istehsalının altıda birini təmin edib. Bu enerji müxtəlif metodlarla əldə edilə bilər. Hidroenerjinin əldə edilməsinin ən geniş yayılmış forması su-elektrik stansiyalarıdır.

Aminə Bayramova hidroenerji istehsalına görə, 2020-ci il üzrə ən yüksək hidroenerji istehsalı göstəricisinin Çində, ondan sonra isə Şimali Amerika və Amazon çayı hövzəsində qeydə alındığını bildirir. Şübhəsiz ki, burada əsas amil böyük hidro potensialın– yəni su hövzələrinin çoxluğudur. Bu gün hidroenerji ümumi əhalisi, təxminən, 800 milyon olan, inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatların elektrik enerjisinə tələbatının əksəriyyətini ödəyir. Bu ölkələrdə hidroenerji elektrik enerjisinə çıxış imkanlarını genişləndirmək üçün sərfəli enerji mənbəyidir.

2020-ci ildə su elektrik enerjisi ABŞ-də ümumi kommunal miqyaslı elektrik enerjisi istehsalının, təxminən, 7,3 faizini və bərpaolunan elektrik enerjisi istehsalının 37 faizini təşkil edib. ABŞ-nin ümumi elektrik enerjisi istehsalında hidroelektrik enerjinin payı zaman keçdikcə digər mənbələrdən elektrik enerjisi istehsalının artması səbəbindən azalıb. Norveçdə isə elektrik enerjisinin 92 faizi hidroenerjidən əldə edilir.

Dünyanın ən böyük su elektrik stansiyası Çində yerləşən 22,5 giqavat gücündə “Üç dərə bəndi” ildə 80–100 terawatt/saat enerji istehsal edir. Türkiyə bu enerji mənbəyindən ən qısa zamanda maksimum səmərə əldə etmək üçün “Tik–idarə et–təhvil ver” və “Tik–idarə et” sistemi və tətbiq etdiyi qanun dəyişiklikləri ilə özəl sektora imkan yaradaraq hidroenerji üçün şəffaf və davamlı bir enerji bazarı yaratmağa çalışır.

Bütün üstünlüklərə və imkanlara baxmayaraq, hidroenergetikanın inkişafı və potensialından istifadədə bəzi çətinliklər mövcuddur. Öncəliklə hidroenerji potensialının yarısı hələ də istifadə edilməyib ki, bunun, təxminən, 60 faizi inkişaf etməkdə olan bazarların və iqtisadiyyatların payına düşür. Bu enerji növündə istixana qazı emissiyalarının səviyyəsi minimal olduğu üçün ekoloji təmiz sayılır. Hidroenerji potensialının gücləndirilməsi üçün, ilk növbədə, investisiyaların cəlbi, hökumətlərin təşviqi, ekoloji risklərin qiymətləndirilməsi üçün standartların müəyyənləşdirilməsi zəruridir ki, bu, həm hidroenerjidən istifadə səviyyəsini yüksəldə, həm də sosial-iqtisadi və ekoloji fayda gətirə bilər.

# Azərbaycanda Beynəlxalq “Yaşıl STEAM” Festivalı

**Elm və Təhsil Nazirliyi və COP29 Sədrliyinin dəstəyi, “STEAM Azərbaycan” layihəsinin təşkilatçılığı ilə keçirilən “Yaşıl STEAM” Festivalında dövlət rəsmiləri, COP29 nümayəndələri, ali təhsil və elmi müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**




Festivala həsr olunan videoçarxın nümayişindən sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bugünkü festivalın təhsil sahəsində nüfuzlu və əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb. “STEAM Azərbaycan”ın ölkə təhsilində vacib layihələrdən biri olduğunu qeyd edən nazir STEAM-ın tədrisində əsas məqsədin gələcək nəsli yeni çağırışlara hazırlamaq olduğunu vurğulayıb.

BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai bildirib ki, COP29 ərəfəsində keçirilən builki STEAM festivalında əsas diqqətin “yaşıl” texnologiyalara yönəldilməsi mühüm önəm daşıyır. O, STEAM təhsil metodunun sinergetik potensialı sayəsində iqlim dəyişmələrinin təsirlərini yumşaltmağın mümkünlüyünə də toxunub.

“STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov builki festivalın final mərhələsinə, ümumilikdə, 244 komanda üzrə 900-dən çox iştirakçının qoşulduğunu bildirərək deyib: “Məzmunun hazırlanması və iştirakçıların qiymətləndirilmə prosesində Danimarka, Slovakiya, Kanada və Türkiyə daxil olmaqla, ümumilikdə, 10 müxtəlif ölkədən 17 münsif iştirak edir. Festival çərçivəsində 9 kateqoriya üzrə yarış və sərgi–yarışlar təşkil olunacaq. STEAM layihəsi hazırda ölkə üzrə 398 məktəb və 252 min 711 şagirdi əhatə edir, 20-dən çox STEAM Mərkəzi fəaliyyət göstərir. Layihə üzrə şagird sayının 2026-cı ilə kimi 300 minə çatdırılması nəzərdə tutulur”.

Çıxışlardan sonra festival iştirakçılarının hazırlıq mərhələsini əks etdirən video təqdim edilib. Daha sonra festivalda iştirak edən yerli və xarici komandaların təqdimatı olub.

Qeyd edək ki, iki gün davam edəcək festivalda iştirakçılar, həmçinin COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri tərəfindən təşkil olunacaq iqlim dəyişmələri və dayanıqlılıq mövzularına həsr olunmuş təlimlərdə də iştirak edəcəklər.

## Karandaş anlatması

# Qara qarğaların COP29 sancısı




*Rəssam: Soltan*

# Bakı konfransının rəqəmsal nəqliyyat xəritəsi hazırlanıb

**COP29 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, iqlim konfransına müxtəlif ölkələrdən minlərlə ziyarətçinin səfər edəcəyi nəzərə alınaraq rəqəmsal nəqliyyat xəritəsi istifadəyə verilib.**




Bildirilib ki, COP29 zamanı ziyarətçilərin nəqliyyatla bağlı üzləşə biləcəyi çətinlikləri aradan qaldırmaq məqsədilə yaradılan bu onlayn resurs əlverişli mövqelərdə yerləşən nəqliyyat qovşaqları, eləcə də konfrans və qonaqlama məkanları ilə əlaqədar əsas məlumatları ehtiva edir.

Nəqliyyat qovşaqları şəbəkəsi şəhərin əlverişli ərazilərini əhatə etməklə yanaşı, bir sıra marşrutları, eləcə də nəqliyyat sxemlərini özündə birləşdirir. Qovşaqlar nümayəndə heyəti və ziyarətçilərin yaşayış yerlərindən Bakı stadionuna getmələri, habelə marşrut avtobusları, metro xətləri–metro stansiyaları və taksilər də daxil olmaqla, bir sıra multimodal nəqliyyat vasitələrindən asan istifadə imkanını gerçəkləşdirir.

Yeni istifadəyə verilmiş və COP29 veb-saytında yerləşdirilmiş rəqəmsal nəqliyyat xəritəsi istifadəçilərə əsas nəqliyyat qovşaqlarının mövqelərini göstərmək üçün nəzərdə tutulub. Bu nəqliyyat qovşaqları COP29 müddətində nümayəndə heyətlərinin gediş-gəlişini optimallaşdırmaq və asanlaşdırmaq məqsədilə hazırlanıb və nəqliyyat qovşaqları, tədbir məkanı, o cümlədən qonaqlama məntəqələri arasında nəqliyyat hərəkətlərini özündə birləşdirib.

İstifadəsi rahat olan bu elektron resurs COP29-un nəqliyyat qovşaqları şəbəkəsi, müvafiq marşrut avtobusu xətləri və “Aero Ekspress” avtobusları ilə sərnişindaşıma xidmətləri ilə yanaşı, Bakı Stadionu, o cümlədən Mavi və Yaşıl zonalar, Heydər Əliyev Beynəlxalq Aeroportu, əsas otellər və yaşayış kompleksləri arasında istiqamətləndirməni təmin edir. Bura parklanma yerləri və avtobus dayanacaqları, eləcə də minmə və enmə nöqtələri haqqında məlumatlar da daxildir. İstifadəçilər rəqəmsal nəqliyyat xəritəsində müvafiq sahələri qeyd edərək təyinat nöqtələri arasında nəqliyyatla və ya piyada hərəkət üçün ən uyğun marşrutları seçə bilərlər.

Rəqəmsal nəqliyyat xəritəsi COP29 Azərbaycan Əməliyyat Şirkətinin konfrans zamanı ziyarətçi axınını səmərəli reallaşdırmaq məqsədilə həyata keçirdiyi tədbirlərdən biridir və toplantı müddətində həm qonaqlar, həm də şəhər sakinləri üçün rahat və komfortlu hərəkəti gerçəkləşdirir. Sərnişindaşıma xidmətlərinin etibarlı şəkildə icrasını təmin etmək üçün həyata keçirilən digər tədbirlərə ekspress ictimai avtobuslar, konfrans üçün ayrılmış xüsusi marşrut avtobusları və hava limanına, eləcə də hava limanından transfer xidmətləri də daxil olmaqla, yüzlərlə taksinin və 400-ə yaxın avtobusun istifadəyə verilməsi daxildir.

Qeyd edilib ki, bütün bunlarla yanaşı, Azərbaycan hökuməti konfrans zamanı akkreditə olunmuş iştirakçılara şəhər və aeroport avtobuslarından, eləcə də ictimai nəqliyyatdan ödənişsiz istifadə imkanı təqdim edir. Nümayəndə heyətləri üçün ödənişsiz marşrut avtobusu xidmətləri ilə yanaşı, ictimai nəqliyyatdan da pulsuz istifadə imkanı tələblərdə nəzərdə tutulmasa da, tədbirə evsahibliyi edən Azərbaycanın üstün səylərini bir daha nümayiş etdirir və COP29 zamanı nümayəndə heyətlərinin Bakıda bir neçə nəqliyyat növündən ödənişsiz istifadə etmələrinə şərait yaradır.

Marşrut avtobusu xidmətləri və ictimai nəqliyyatdan (metropoliten, qatarlar və müntəzəm avtobuslar) ödənişsiz istifadə etmək üçün nümayəndələr akkreditasiya və ya təsdiq məktubunu təqdim etməlidirlər. Konfransın nəqliyyat xidmətlərindən istifadə ilə bağlı bütün məlumatlar COP29-un rəsmi veb-saytında yerləşdirilib.

# BMK-nın iqlim təşəbbüsləri



**Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev Beynəlxalq Maliyyə Korporasiyasının idarəedici direktoru Makar Diyop ilə görüşündə iqlim fəaliyyətində maliyyə məsələlərini müzakirə edib.**

Bu barədə COP29-un “X” hesabında yerləşdirilən paylaşımda tərəflərin iqlim fəaliyyəti üçün innovativ maliyyələşdirmə həlləri barədə danışıqlar apardıqları, söhbət zamanı iqlim konfransına hazırlıq öncəsi inkişaf etməkdə olan ölkələrə dəstəyin artırılması və dayanıqlı inkişaf məqsədlərinin gerçəkləşdirilməsi üçün özəl sektorun investisiyalarının səfərbər edilməsinin zəruriliyi bildirilib.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*

Türkiyədən xəbər

# Anar – “Yaşayan ədəbi dəyər”

**Türkiyədə keçirilən ənənəvi Trabzon Beynəlxalq Ədəbiyyat Festivalında AYB-nin sədri, Xalq yazıçısı Anar “Yaşayan ədəbi dəyərlər” medalı ilə təltif edilib.**

Builki mövzusu “İz və məkan” olan söz-sənət bayramında yerli valiliyin və bələdiyyənin rəsmiləri, çoxsaylı xarici qonaqlar iştirak ediblər. Sosial Elmlər Liseyində Xalq yazıçısının yaradıcılığı ilə bağlı şagirdlərin ifasında kompozisiyalar səsləndirilib, “Kitabi-Dədə Qorqud” dastanının motivləri əsasında səhnəciklər nümayiş etdirilib, həmçinin Anarın portreti istedadlı şagirdlər tərəfindən işlənilib və yazıçıya təqdim olunub.

Xatırladaq ki, bir neçə ay əvvəl də Türkiyəyə yaradıcılıq səfəri çərçivəsində Anar Türk Ədəbiyyatı Vəqfinin “Türk dünyasının ağsaqqalı” mükafatına layiq görülmüşdü.

Oktyabrın 29-dək davam edəcək festival çərçivəsində Trabzonun bölgələrində müxtəlif ölkələrin ədəbiyyat ustadlarının xatirəsinə həsr olunmuş sərgilər, müəlliflərin imza günləri, yerli mədəniyyət, incəsənət və ədəbiyyatla bağlı tədbirlər keçirilməsi nəzərdə tutulur.

***XQ***



İzimiz, tariximiz...

# Ağ hunların “qızıl” dövrü




**Türklər tarixən dünyanın müxtəlif məkanlarında – indiki İran ərazisində, Əfqanıstanda, Hindistanda, Türküstan ərazilərində dövlət qurub öz mədəniyyətlərini inkişaf etdiriblər. Bu sayımızdan Əfqanıstan, Hindistan və Türküstan ərazilərində tarixi Türk dövlətləri və hökmdarları haqqında yazıları oxucularımıza təqdim edirik. Qədim Türk dövlətləri ilə bağlı yazıların hazırlanmasında mövcud elektron və çap materiallarından, tarixi mənbələrdən istifadə olunub.**


Mihiraqul xan


Ağsuvar xan

Bu da məlum faktdır ki, bu gün Əfqanıstan və Hindistanda kifayət qədər Azərbaycan türkü olan qızılbaşlar, əfşarlar, qacarlar və digər türk xalqları yaşayırlar. Ümumiyyətlə, eramızın əvvəlindən 1747-ci ilə – Nadir şahın ölümünə qədər Əfqanıstanın, Hindistanın böyük bir hissəsi türklər tərəfindən idarə olunub.

Ağ hunlar, Göytürklər, Qəznəvilər, Böyük Səlcuqlar, Dehli Türk Dövləti, Teymurilər Dövləti, Şeybanilər, Xarəzmşahlar, Əfşarlar və Baburilər dövləti (Böyük Moğol İmperiyası) Əfqanıstan, Hindistan və Türküstan ərazilərində qurulan əsas türk dövlətlərinin tam siyahısı deyil.

Türküstan ərazisində yaradılan ən qədim Türk dövlətləri haqqında danışarkən ilk əvvəl bizim eradan əvvəl birinci minilliyin ortalarında Kəngərlilərin Türküstanda yaratdıqları Kanq dövləti yada düşür. Bu dövlət bizim eranın dördüncü əsrinə qədər yaşayıb. Bu, başqa söhbətin mövzusudur.

Türklərin tarixində hunların rolu əvəzsizdir: əvvəl Böyük Hun Dövləti, sonra isə Ağ Hun İmperiyası. Hər dövlətin tarixdə öz yeri, öz rolu olub. Hunlar, yəni həm də indiki macarlar türklərin adını, qəhrəmanlığını, şücaətini göylərə qaldırıblar. Mən keçmiş SSRİ dövründə əsgərliyimi Macarıstanda keçmişəm. Eynən bizə, türklərə oxşayırlar, bizim kimi əməksevər, bizim kimi qonaqpərvər...

Yeməkləri də bizimkilərə çox yaxındır. Macarların dilində çoxlu türk sözü var, almaya alma, üzümə üzüm deyirlər. Macarıstanda hərbi xidmət keçən zaman onların qədim türk tayfaları olduğunu bilmirdim, mənə qəribə gəlirdi, türk sözləri macarların dilində haradandır... Əsgərlikdən sonra universitet illərində maraqlandım və öyrəndim ki, macarlar da elə bizim kimi türk olublar, xristianlığı sonradan qəbul ediblər. Macarlar özlərini madyar, ölkələrini Hunqariya adlandırıblar ki, bu da Hun tayfalarının yaşadığı məkan anlamına gəlir. Təsadüfi deyil ki, Macarıstan Türk Dövlətləri Təşkilatında müşahidəçi statusuna malikdir və indi də qədim hunların tarixini az-çox bilən macarlar özlərini türk hesab edirlər.

**İndi də hunların Qərbi Türküstana gəlişi, onların bu məkanda imperiya yaratması, inkişafı, dünyada şöhrət tapması haqqında...**

IV əsrdə Böyük Hun Dövləti və ya Avropa Hun İmperiyası (Qara Hunlar) süqut etdikdən sonra hun tayfalarının böyük hissəsi İdil çayından qərbə doğru irəliləsə də, hunların bir hissəsi Qərbi Türküstana köç edib. Qərbə doğru hərəkət edən hunlar Volqa və Ural çayları ətrafındakı torpaqları ələ keçirib yürüşü davam etdiriblər. Hunların və digər xalqların qərbə axını "Xalqların böyük köçü" adlanır. Hunların Böyük Çin səddindən Fransaya qədər gedib çıxmaları haqqında da kifayət qədər tarixi məlumatlar var.

Tarixdən bu da məlumdur ki, Sasani dövləti ilə mübarizə aparan hunlar IV yüzilliyin ikinci yarısında Ağ Hun İmperiyasının əsasını qoyublar. İmperiya IV əsrin sonlarında – 567-ci illərdə mövcud olub. Ağ hunlar Qafqazdan Hindistana qədər uzanan geniş ərazilərdə məskunlaşıblar. Ağ hunlar IV yüzilliyin ikinci yarısında Qobi çölündən Xəzər dənizi sahillərinə qədər uzanan geniş ərazidə öz dövlətlərini qurublar.

Hunların digər bir hissəsi Ön Asiya istiqamətində hərəkət edərək Qafqaz dağlarını aşıb, Dəmir Qapı Dərbənd vasitəsilə Azərbaycana, mənbələrdə deyildiyi kimi, Odlar yurduna gəlib. Ağ Hun İmperiyasının sərhədləri Seyhun (indiki Sırdərya) çayı və Səmərqənd ətrafından başlayaraq qərbdə Xəzər dənizinin cənubuna qədər uzanıb.

Ağ hunların qərb qonşuları sasanilər, şimal qonşuları isə göytürklər idi. Ağ rəngi simvolizə edən Ağ Hun İmperiyası V əsrdə hakimiyyətdə olan Eftal xanın adı ilə Eftalitlər dövləti kimi də tanınıb. Buna hunların qərb qolu da deyilib. İmperiyanın bayrağı da ağ rəngdə və üç qırmızı ulduzdan ibarət olub. Ağ Hun İmperiyası indiki Əfqanıstan, Hindistanın şimal-qərb hissəsi, Qazaxıstan, Qırğızıstan, Özbəkistanın bir hissəsi, Pakistan, Tacikistan, Türkmənistan ərazilərini əhatə edib. İmperiyanın paytaxtı Kunduz və Bəlx, rəsmi dili Hun türkcəsi olub. Ağ hunlar iki böyük qəbiləyə bölünüb, Yar və Hun. Dövlətin idarə edilməsi bu qəbilələrin əlində olub.

V yüzilliyin ortalarında sasanilərlə müharibədə İran yaylasının şərq hissələrini və Türküstanı, 484-cü ildə Sasanilər üzərində növbəti qələbədən sonra Heratı ələ keçiriblər. Ağ hunlar qərbdə, Xəzər dənizinin şərq sahillərində, Qırmızı hunlar isə cənubda, Hindistanın şimalı və Əfqanıstanda qurduqları Kidar imperiyasında yaşayıblar.

Bu da məlumdur ki, Ağ hunların bir hissəsi Azərbaycan ərazisində məskunlaşıb, Azərbaycan xalqının formalaşmasında iştirak ediblər. Mənbələr Azərbaycanda qədim dövrlərdə kadusi, orta əsrlərdə isə abdallı adlandırılan tayfaları ağ hunlar hesab edirlər. Orta əsrlərdə "Hun qalası" deyilən, hazırda Tovuz rayonu ərazisində "Hun dərəsi" adlı toponim qorunub saxlanılır və buranın əhalisi özlərini hunların varisləri hesab edir. Bir zamanlar Dəmir qapı Dərbənd Dərbənd Hun Qapıları da adlanıb.

Ağ rəngi simvolizə edən Ağ Hun İmperiyası Ağsuvar xanın dövründə bir sıra əraziləri tutub. 430-cu ildə hakimiyyətə gələn Ağsuvar xan Firuz şaha Sasani taxtına çıxmaqda yaxından kömək göstərib. Lakin bu hadisədən az sonra Firuz şah Ağsuvar xana qarşı çıxaraq Ağ hunlarla müharibə elan edib. Düşmənə qarşı "Turan taktikası"ndan istifadə edən Ağsuvar xan Sasani ordusunu mühasirəyə alıb. Firuz şah hər iki ordunun döyüşçülərinin gözləri qarşısında Ağ Hun hökmdarının qarşısında diz çöküb bağışlanması üçün yalvarıb. Ağsuvar xan Firuz şahı bağışlayıb. Çox keçmədən Firuz şah yenidən Ağ Hun torpaqlarına hücum edib və uduzub. 484-cü ildə Heratda olan döyüşdə Ağsuvar Firuz şahı mühasirəyə alaraq övladları ilə birlikdə öldürüb, iki qızı əsir alınıb.

İmperiyanın ən parlaq dövrü Toraman Təkinin hökmdarlığı dövründə olub, Toraman Təkinin zamanında Ağ hunlar Şimali Hindistana yürüşlər edib, Pəncab işğal olunub. Sakala şəhəri dövlətin paytaxtı olub, sərhədləri genişlənib.

Toraman Təkin 515-ci ildə vəfat edib və yerinə oğlu Mihiraqul keçib. İmperiyanın ən qüdrətli dövrü VI yüzillikdə həm də Mihiraqul xanın adı ilə bağlıdır. VI əsrdə Mihiraqul xanın zamanında Hindistanın şimal-qərbi işğal olunub. Mihiraqulun dövründə Ağ Hun İmperiyası özünün ən qüdrətli dövrünü yaşayıb. O, döyüş fillərindən ibarət güclü ordu yaradıb. Ağ Hun İmperiyasının geniş ərazilərə yayılması dövlətin daxilində parçalanmaya səbəb olub.

533-cü ildə Mihiraqul xan xəstələnərək vəfat edib və həmin il Mihiraqulun qardaşı Xıranaqul hakimiyyətə keçib, 540-cı ilədək hökmdar olub. O, zəif hökmdar kimi ad çıxarıb, əylənməyi çox sevib. O, həm də vəhşi filləri qulların üzərinə buraxıb, fillərin onları öldürməsi səhnəsinə saatlarla tamaşa edərmiş.

Ağ Hun İmperiyasının son hökmdarları bunlardır: Laxana Udayahitya, Xinqala Narendratitya, Purvaditya, Napki Malka. Bu dövrdə yeni yaranan Göytürk İmperiyası Ağ hunlara qarşı çıxır, 567-ci ildə Sasani və Göytürklər birləşərək Ağ Hun Dövlətini süquta məcbur edirlər, torpaqları Sasanilər və Göytürklər arasında bölüşdürülür.

Ağ hunlar başqa türk tayfalarından fərqli olaraq oturaq həyata daha tez keçiblər və şəhərlərin salınmasında mühüm rol oynayıblar. Əkinçilik və maldarlıqla yanaşı, sənətkarlıqla, Böyük İpək Yolunun üzərində yerləşdikləri üçün ticarətlə məşğul olublar. Alış-veriş zamanı üzərində toxar yazısı olan metal pullardan istifadə ediblər. Çinlilər onları cəsur döyüşçülər adlandırırdılar. Oğurluq böyük cinayət hesab olunub və oğurluğa görə adamlar edam edilib. Ağ hunlar Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynayıb. Ağ hunlardan olan çul tayfasının bir hissəsi Dərbənd ətrafında məskunlaşıb.

Onu da deyək ki, Ağ Hun İmperiyası haqqında əsas mənbələr Çin dilindədir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

Aşıq Veysəl – 130

# Dünyanı ağlı ilə duyan, qəlbi ilə görən ulu ozan

**Onun adı gələndə, nədənsə, öncə “Uzun, incə bir yoldayım, gediyorum gündüz gecə” misraları ilə başlayan türküsünün melodiyaları qulaqlarımda səslənir. Aşıq Veysəl poeziyasının qanadlarında ömür-gün haqqında lirik-fəlsəfi duyğular sarır könlümü.**



Sonra unudulmaz şair dostum Məmməd Aslanın türk xalq şeirinin azman sənətkarı barədə yazdıqlarını və dediklərini xatırlayıram. Məmməd əmi danışırdı ki, uşaq ikən Veysəlin bir gözü çiçək xəstəliyi səbəbilə tutulandan sonra bağçada dərdiyi gülün tikanı o biri gözünə batıb və gələcək ozan görmə imkanını tamam itirib. Özünün şeirlərindən birində bu barədə misralar da var:

**310-da gəlmiş idim cahana,**
**Dünyanı görmədim mən qana-qana.**
**Qədər böylə imiş, çiçək bəhanə,**
**Lövhü qələm qara yazmış yazımı.**

İlk misradakı “310” rəqəmi miladi təqvimlə 1894-cü ildir. Buradakı “çiçək” sözünün isə xəstəliyəmi, yoxsa bağçadakı həmin tikanlı güləmi aid olduğu bilinmir.

Mən İstanbulun məşhur Gülhanə parkında Aşıq Veysəli ziyarət etmişəm. Ulu ozanın qocaman ağacların çətiri altında, sazı ilə birgə oturaq halda yapılmış heykəlinə xeyli baxmış, məşhur “Qara torpaq” şeirindən əzbər bildiyim ölməz misralarını onun özünə pıçıldamışam:

**Qarnın yardım qazmağınan, belinən,**
**Üzün yırtdım dırnağınan, əlinən, –**
**Yenə məni qarşıladı gülünən**
**Mənim sadiq yarım qara torpaqdır.**

Məmməd Aslan isə abidəsi də, məzarı da gül-çiçəkdən əskik olmayan ulu ozana həsr etdiyi şeirində yazırdı:

**Kor olan göz var ki, bir elə işıq**
**Gətir xəyalına qoca Veysəli.**
**Dünya işığına tamarzı aşıq**
**İşığa çıxarıb böyük bir eli.**



Aşıq Veysəl Şatıroğlu 1894-cü ilin oktyabr ayında Anadolunun Sivas vilayətində, Əfşar boyunun Şatırlı obasında anadan olub. Ondan əvvəl 2 bacısı geniş yayılmış çiçək xəstəliyindən tələf olubmuş. Bu azar Veysəldən də yan keçməyib. Sonralar başına gələni belə xatırlayıb: “Yağışlı bir gündə, evə qayıdarkən yıxıldım və bir daha ayağa dura bilmədim. Çiçək xəstəliyinə yoluxmuşdum... Əvvəl sol gözüm tutuldu, daha sonra isə sağ... Həmin gündən dünya mənim üçün bir zindandır”...

Amma qalan ömründə Veysəl dünyaya qəlbinin gözü ilə baxıb. Onun fikrincə, aşıq işıqlı dünyada baş verən olaylara gözləri ilə deyil, könlü, ürəyi ilə baxmalıdır. Elə buna görə də o, gözlərini açmaq belə mümkün olsa da, buna icazə verməyəcəyini söyləyib. Sanki gözləri açılsaydı, onun könül dünyası dağılıb gedəcəkdi.

Veysəlin əkinçi olan atası sazı-sözü sevər, daim evinə el sənətkarlarını qonaq gətirərmiş. Oğlu da onların şeirlərini əzbərləyib deyərmiş. Atasının Veysələ aldığı saz onun həyatının ən böyük sirdaşı olub. Dərd-sərini bu sehirli alətlə bölüşdürüb. Dərd-sər də ki, taleyinə yetərli qədər yazılıbmış. Aşıq Veysəl 25 yaşında evlənir, lakin bu izdivac ona xoşbəxtlik gətirmir. Bir neçə il sonra həyat yoldaşı Əsma altı aylıq qız uşağını da onun üstünə atıb gedir. Sonra aşıq 2-ci dəfə evlənir və bu evlilikdən daha bir neçə övladı olur.

1933-cü ildə Türkiyə Cümhuriyyətinin 10 illiyində Aşıq Veysəl Sıvasdan Ankaraya piyada gələrək, orada bir müddət qəhvəxanalarda sazı və Yunus İmrədən, Pir Sultan Abdaldan, Qaracaoğlandan, Dadaloğludan öyrəndiklərini ustalıqla təqdim edir. Türkü və saz ifaçılığında ustalaşır, özü də şeirlər yazmağa başlayır. Sazı ilə çıxışlar edib və daha geniş tanınmağa başlayıb. Ardınca özü də könül duyğularını şeir misralarına çevirib. İlk şeiri Cümhuriyyətin yubileyinə həsr edib milli bayramda söylədiyi “Atatürkdür Türkiyənin əhyası” adlanırdı. “Deyişlər”, “Sazımda səslər”, “Aşıq Veysəl”, “Dostlar məni xatırlasın” kimi kitabları çap olunub. Kənddə saz müəllimliyi edərək ozan sənətini gənclərə də öyrədib. 1965-ci ildə Türkiyə Böyük Millət Məclisi Aşıq Veysələ “Ana dilinə və Milli Birliyə etdiyi xidmətlərinə görə” özəl bir qanunla maaş kəsib. O isə insanlara, yurddaşlarına xidmət etməyi özünə borc bilərək, bağlar, körpülər saldırıb, digər xeyirxah işlər görüb.

Böyük türk ozanı və şairi 1973-cü il martın 12-də doğma kəndi Sivrialanda dünyasını dəyişib. Öləcəyini sanki irəlicədən duyaraq, “bəbə kimi qollarında yaylatdığı” saza üz tutub yazmışdı:

**Mən gedərsəm, sazım, sən qal dünyada,**
**Gizli sirlərimi aşikar etmə.**
**Lal olsun dillərin, söyləmə yada,**
**Qərib bülbül kimi ahu-zar etmə.**

Həmin dövrün Hümeyra, Fikrət Qızılox və Esin Əfşar kimi sənətçiləri aşıq tərəfindən yazılan mahnıları oxuyaraq, onun şöhrətinin ölkə hüdudularından kənarda yayılmasına vəsilə olublar. Pir kişilərdən, pak söz-sənət azmanlarından sayılan unudulmazın Sivasdakı evi muzeyə çevrilib. Hər il Türkiyədə Aşıq Veysəli anma törəni keçirilir. Onu da xatırladım ki, TÜRKSOY 2019-cu ili anadan olmasının 125-ci ildönümü münasibətilə “Aşıq Veysəl ili” elan edib. 2023-cü ildə isə Aşıq Veysəlin ölümünün 50-ci ildönümü UNESCO-nun yubileylər proqramı çərçivəsində qeyd olunub. Hər iki ildönümü ilə bağlı Azərbaycanda da tədbirlər keçirilib.

Beləcə, Aşıq Veysəlin cismini “sadiq yarı” olan qara torpaq bağrına bassa da, şeirləri və xatirələri yaddaşlara köçüb.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Zaqatalada ədəbi yubiley

**Zaqatalada Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü Güldanə Zərifin (Ramazanova) 75 illik yubileyi münasibətilə yaradıcılıq gecəsi keçirilib.**

Geniş oxucu auditoriyası bir neçə ay əvvəl Bakıda, III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında imza günü keçirilən Güldanə Zərifin zərif poetik duyğuları ilə yaxından tanış olmuşdu. Bu günlərdə isə doğma yurdu Zaqatalada yubiley məclisinə toplaşanlar onun şeir dünyasına səyahətdən əsl mənada zövq aldılar.



AYB Şimal-Qərb regional bölməsinin sədri Əlmaniz Ələkbərli, şəhid anası Züleyxa Davudova, bölgə şairlərindən Nəbi Mülkümov, Qərənfil İsrafilqızı, Nüsrət Musa, Kifayət Müttəlibqızı, Şirin Qəlbinur, Mehriban Muradova, Şükufə Göyçəli, Adilə Aslanova, Gülbahar və Sürayyə Cahanlı bacıları Güldanə xanımın yaradıcı uğurlarından bəhs etdilər, onun “Payızın baharı”, “Kədər axtarıram”, “Sevən ürək” və s. kitablarının bədii məziyyətlərini önə çəkdilər, şeirlərini səsləndirdilər. Gecədə yubilyarın həm də nəğməkar şair olduğu vurğulandı və sözlərinə yazılmış mahnılar səsləndirildi.




Sonda Güldanə Zərif çıxış edərək bütün iştirakçılara minnətdarlığını bildirdi və yeni şeirlərini oxuyaraq, hər kəsə duyğulu anlar yaşatdı.

***İlqar HƏSƏNOV***
***XQ***

Replika

# Min Bakıdan “biznes vaqon”a...

**Sonuncu dəfə sürət qatarı ilə Bakıdan Gəncəyə bir il qabaq gəlmişdim və çox razı qalmışdım. Rahat, açılan-yığılan dəri kreslolar, qarşındakı kreslonun arxasından çıxan kiçik masa, WiFi, normal yemək...**



Bu il oktyabrın 24-də də xidməti işimlə bağlı təcili Gəncəyə qayıdası oldum və sonuncu qalan yeganə yeri onlayn şəkildə ala bilməyimə çox sevindim. Elə bildim ki, 30 saniyəyə satılan MİDA-nın mənzillərindən birinin xoşbəxt sahibi olmuşam. Amma sən saydığını say, gör, az qala, uşaq kimi sevinərək tapdığım o “yeganə” yer nə sayır.

Səhər tezdən yuxuma haram qatıb taksi tutaraq dəmiryolu vağzalına gəldim və “biznes vaqon” deyilən 5-ci vaqona daxil olanda gözlərimə inanmadım. Axşam onlayn sifariş vermək istəyərkən bütün yerlərin satıldığı barədə məlumat aldığım halda, vaqondakı 35 yerdən 28-i boş idi. Bələdçidən soruşdum ki, bu, nə məsələdir? Dedi ki, “yəqin, yolda minən olacaq, ya da gecə ikən biletləri qaytarıblar, yerlər boş qalıb” . Təbii ki, gənc, mülayim danışan qıza inanmaqdan başqa çarəm qalmadı.

Qatar yola düşdü və yalnız bircə nəfər Biləcəri stansiyasında bizimlə yol yoldaşı oldu. Nə isə, buna da dözmək olardı, onsuz da belə “alış-veriş”ləri əvvəllər də çox görmüşük. Məsələ burasındadır ki, “biznes vaqon”un adı var. Burada heç bir qeyri-adi xidmət yoxdur. Oturacaqlarda “oxlov udmuş adam” kimi aylaşmişdik, noutbuku dizimin üstünə qoyub yazırdım, ayaqlarım qarşıdakının ayaqları ilə “qardaşlaşmışdı”, “WiFi” yox idi, “yeməyi” – kökəciyi gətirib Somalidəki uşaqlara pay verən kimi üstümüzə atıb gedirdilər…

Yenə bələdçi qıza “bu necə biznes vaqondur?” – deyə soruşanda, günahkar adamlar kimi çiyinlərini çəkib gülümsədi. Naftalana müalicəyə gedən və bayaqdan başa düşməsə də, söhbətimizə diqqətlə qulaq asan, dizlərimiz bir-birinə bitişən belaruslu ağsaqqal “U nas biznes vaqon oçen krasivıy i udobnıy”, – dedi. Düzü, utandım və yalandan dedim ki, bizimkilərə çatmaz. Yanaşı kresloda (kreslo demək mümkünsə) əyləşən və Şəkiyə hüzr yerinə gedən tanınmış bəstəkarımız, Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə mənə baxıb razılıqla gülümsədi.

Bütün bunları gördükdən sonra fikirləşdim ki, görəsən, 33 manat verib bu vaqona bilet almağın mənası varmı? Halbuki, 15,19 manatlıq standart vaqonlar da var və “biznesin” bunlarla müqayisədə heç bir üstünlüyü yoxdur. Yeganə üstünlüyü bələdçinin dediyi kimi, “burada adam azdır və yanınızdakı kreslo boşdur, yəni peşkəşdir və bir də kökəcik...”

...Deyirəm, gərək bir qədər təmkinli olasan. Bir dostumun mənə tez-tez dediyi “səbrli ol” kəlməsi yadıma düşür, dərhal da susuram və vaqonun pəncərəsindən baxa-baxa, bayaqdan havada əlimdə tutduğum isti çayı üstümə tökə-tökə, fikirləşirəm ki, görəsən, indiyədək mənə vicdanla xidmət edən maşınımdan bu dəfə axı niyə imtina etdim?

Hörmətli ADY-nin rəhbərliyi, çox yox, o biznes dediyiniz vaqona bircə dəfə də özünüz minin, başqa xidmətləri demirik, sizə gətirib çay versələr və onu soyutmağa yer tapsanız, bizə xəbər edin, yenə onlayn bilet alaq, bəlkə, bu dəfə bəxtimiz gətirdi...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Bakı–Gəncə**

# “TikTok for Business” platforması Azərbaycanda

**Qısa videoların izlənməsi və yaradılması üçün aparıcı platforma olan TikTok Azərbaycan auditoriyasına “TikTok For Business” platformasını təqdim edib.**




Platformanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ictimai əlaqə rəhbəri Kristina Yevgeniyevna mərasimdə bildirdi ki, bu platforma Azərbaycanda da bir çox yerli şirkətlərlə əməkdaşlıq mövzusunda əsasa çevriləcək. Bu ildən etibarən, ölkədə fəaliyyət göstərən bir sıra şirkətlər TikTok-da reklam yerləşdirə və çoxlu izləyici qazana biləcək.

TikTok-un Azərbaycan, Türkiyə, Mərkəzi və Cənubi Asiyada “Global Business Solutions” departamentinin rəhbəri Barış Aldanmaz isə vurğuladı ki, gələcəkdə bu platforma biznes vəzifələrinin də təsirli həllinə kömək edəcək: “Bu platformanın əsas özəlliyi reklam mesajlarını təkcə auditoriyaya çatdırmaq imkanından ibarət deyil, eyni zamanda, brendlər istifadəçilərlə ortaq dildə ünsiyyət quraraq, onların etibarını və sevgisini qazana bilərlər. “TikTok for Business” yeni məhsulun bazara çıxarılmasından tutmuş satışların artırılmasına qədər inkişaf proseslərini özündə birləşdirir. Biz Azərbaycanda bir çox şirkətlərin TikTok-un imkanlarını kəşf etməsinə və bizimlə əməkdaşlıq etmələri üçün onlara dəstək oluruq”.

Qeyd edək ki, bu platformadan dünyada 1 milyarddan çox insan istifadə edir. TikTok müxtəlif yaş kateqoriyalı, fərqli maraq və hobbili insanları əhatə edir.

***Fidan SALMANOVA***
***XQ***

# “Qarabağ” “Ayaks”a məğlub oldu





**Dünən UEFA Avropa Liqasının əsas mərhələsinin növbəti oyunları keçirildi. Bakıdakı Tofiq Bəhramov adına Respublika Stadionunda üz-üzə gələn “Qarabağ” və “Ayaks” (Niderland) komandaları arasında qarşılaşma rəqibin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.**



“Ayaks”ın qollarını oyunun 36-cı dəqiqəsində Kennet Teylor, 74-cü dəqiqəsində Vaut Veqhorst və 76-cı dəqiqəsində isə Çuba Akpom vurublar.

“Qarabağ”ın heyətində 15-ci dəqiqədə Julio Romao və 79-cu dəqiqədə Elvin Cəfərquliyev qırmızı vərəqə alaraq meydandan qovulublar.

Xatırladaq ki, “Qarabağ” Avropa Liqasında növbəti oyununu noyabrın 7-də Norveçdə “Bodo Qlimt”ə qarşı keçirəcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

Beynəlxalq həyat

# BRICS yeni dünya nizamına töhfə verə bilər



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan XVI BRICS Sammitinin genişləndirilmiş iclası zamanı bir çox dəyərli təkliflərlə çıxış edib. Deyib ki, qurum saysız-hesabsız çağırışları nəzərə alaraq yeni, ədalətli dünya nizamının qurulmasına mühüm töhfə verə bilər.**

Onun sözlərinə görə, BRICS platforması dünyanın təhlükəsizlik təhdidləri və iqlim dəyişikliyi və s. bu kimi çoxsaylı ciddi problemlərlə üzləşdiyi müasir geosiyasi şəraitdə xüsusi əhəmiyyət kəsb edir.

Türkiyə Prezidenti vurğulayıb ki, İkinci Dünya müharibəsindən sonra formalaşan müasir sistem əhəmiyyətli dəyişikliklər tələb edir. Buna görə də mövcud problemlərin birgə həlli yollarını axtarmaq lazımdır.

R.T.Ərdoğan sözügedən tədbirdə çıxışında Yaxın Şərq böhranının həlli məsələsinə də toxunub. Qeyd edib ki, regionda davamlı sülh yalnız paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin dövlətinin yaradılmasından sonra mümkündür.

Məlumdur ki, Ankara İsrailə silah tədarükünə embarqo qoyulması təşəbbüsünü irəli sürüb və bu sahədə BRICS-in dəstəyinə ümid edir. Türkiyə liderinin sözlərinə görə, qan tökülməsinə və böhranlara son qoyulmadan inkişaf və rifahı təmin etmək mümkün deyil.

Türkiyə lideri Kazanda Rusiya Prezidenti ilə ikitərəfli görüş keçirib. TASS-ın məlumatına görə, liderlər, ilk növbədə, ticari-iqtisadi əlaqələrin inkişafı perspektivlərini, eləcə də Türkiyə ərazisində beynəlxalq qaz qovşağının yaradılması layihəsini müzakirə ediblər. Ehtimal olunur ki, digər aktual məsələlər də liderlərin gündəmində olub.

V.Putin Ankarada törədilmiş terror aktı ilə əlaqədar Ərdoğana başsağlığı verib: “İşimizə başlamazdan əvvəl terror aktı ilə əlaqədar sizə başsağlığı vermək istərdim. Mediada Türkiyədə terror aktı baş verdiyi barədə məlumatlar çıxıb”, - deyə Rusiya lideri bildirib. R.T.Ərdoğan diqqətə görə həmkarına təşəkkür edib.

Qeyd edək ki, bundan əvvəl Rusiya və Türkiyə liderləri son dəfə Şanxay Əməkdaşlıq Təşkilatının iyul ayında Astanada baş tutmuş sammitindən əvvəl görüşmüşdülər. Xeyli vaxtdır ki, Rusiya Prezidentinin Türkiyəyə səfəri də planlaşdırılıb. Amma hələlik səfəri həyata keçirmək mümkün olmayıb. Ekspertlər ən müxtəlif ehtimallar irəli sürürlər.

Yeri gəlmişkən, Türkiyə Prezidentinin Kazana səfəri Qərb mediasının da diqqət mərkəzində olub. Bu da gözlənilləndir. Axı cənab Ərdoğan müasir dünya siyasətinin ən nüfuzlu simalarından biridir. Onun BRICS sammitində iştirakı Qərb siyasətçilərinin və KİV-in nəzərindən yayına bilməzdi.

Təsadüfi deyil ki, ABŞ-nin nüfuzlu “Nyu York Times” qəzeti dünən bu məsələ ilə bağlı şərhində yazıb ki, Türkiyə lideri BRICS sammitində ən qeyri-adi təşəbbüslə bağışlayan siyasətçidir. Çünki o, tədbirdə iştirak edən yeganə NATO-ya üzv dövlətin başçısıdır.

Qəzet, həmçinin qeyd edib ki. R.T.Ərdoğan çağdaş dünyanın çeşidli siyasi qütbləri arasında manevr etməyi bacaran yüksək səriştəli dövlət xadimlərindəndir. Belə ki, Rusiya ilə Türkiyəni strateji müttəfiq saymaq qeyri-mümkündür, amma bu iki dövlətin rəhbərləri arasındakı şəxsi münasibətlər bir çox aktual məsələləri nizamlamağa imkan verir.

Bununla bərabər, yazıda nəşrin Türkiyə liderinin müstəqil siyasi xətt yürütməsinə qarşı aşkar bir qısqanclıq hissi duyulur. Ankaranın guya iki stulda əyləşmək cəhdlərinin bəhrəsiz qalacağı da iddia olunur. Amerika qəzeti unudur ki, cənab Ərdoğan Türkiyə dövlətinin və xalqının maraqlarına xidmət edir.

***M.HACIXANLI***
***XQ***

## BMT Baş katibi: Dünya biomüxtəliflik və maliyyə bərabərsizliyi böhranı ilə üzləşib

**Biomüxtəliflik böhranı, iqlim dəyişikliyi və maliyyə bərabərsizliyi problemləri inkişaf etməkdə olan ölkələri təhdid edir. Kazana ezam olunan əməkdaşımızın məlumatına görə, bunu BMT-nin Baş katibi Antonio Quterreş XVI BRICS Sammitinin “Outreach”/“BRİCS+” formatının genişləndirilmiş iclasında bildirib.**



"Böhranlar bir çox həssas ölkələri təhdid edir. Vəziyyət dəyişməlidir", - o qeyd edib. A.Quterreş sentyabrda keçirilən Gələcək Sammitində çoxtərəfliliyin gücləndirilməsi, sülhün və davamlı inkişafın, eləcə də insan hüquqlarının təşviqi üzrə "yol xəritəsi"nin təqdim edildiyini xatırladıb.

"İqlim dəyişikliyi ilə mübarizə üzrə bugünkü maliyyələşdirmə sistemi bir çox həssas ölkələrə lazımi sosial təminat səviyyəsinə çatmağa imkan vermir", - o bildirib.

***XQ***

## “Oğuz Aqrotexservis” ASC səhmdarlarının nəzərinə!

26 noyabr 2024-cü il, saat 11.00-da “Oğuz Aqrotexservis” ASC səhmdarlarının növbədənkənar illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. “Oğuz Aqrotexservis” ASC-nin idarə heyəti sədrinin yenidən seçilməsi.
2. Cəmiyyətin nizamnaməsində dəyişikliklərin olunması.
3. Səhmdar cəmiyyətin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
4. Digər məsələlər.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyi üzrə materiallarla ümumi yığıncaq zamanı tanış olmaq mümkündür.

Ümumi yığıncağın keçiriləcəyi ünvan – Oğuz rayonunun Padar kəndi, səhmdar cəmiyyətinin həyəti.

## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

*“Sosial iş” fakültəsində dekan vəzifəsini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

Dekan vəzifəsi üçün müsabiqədə iştirak etmək istəyənlərin fakültənin profilinə uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəsi və peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcəsi olmalıdır. Sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək akademiyaya təqdim edilməlidir.

Telefonlar– 563-13-07, 563-15-40.

Ünvan– AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 235 (30639) 25 oktyabr 2024-cü il, cümə



# Ürəyimizə batan oxlar...

## *Dəmir qalxan da bu zərbələrə dözməz*



**15–20 il əvvəl həkim məsləhətlərinə o qədər də əhəmiyyət verməzdim. Ona görə ki, canım-başım çox ağrımazdı. Ağrıyanda da özümü ovxalatdırar, mürəbbəli çay içər, uzağı, günortaya kimi yatar, sonra da durub gedərdım işimin dalınca. Onu da deyim ki, gəncliyimdə təzyiqim həmişə normadan aşağı olub. Bir dəfə sahə həkimi anamı müayinə üçün evimizə gələndə mənim də təzyiqimi ölçüb təəccübləndi və dedi: “Bu təzyiqlə sən işə necə gedirsən? Nə vaxt istəsən, sənə xəstəlik vərəqi verə bilərik...”**

Onda sovetlər dövrü idi və xəstəlik vərəqi həm həkimlərin, həm də işləyən və oxuyan vətəndaşların sevimli sənədi idi. Bu gün xəstəlik vərəqi almaq istəyənlərin sayı azdır. Çünki özəl təşkilatların rəhbərləri xəstəlik vərəqini görəndə elə bil “qutuda ilan görür”lər və dilxor olurlar. Nə isə, bu, başqa söhbətin mövzusu olduğundan arxasını yazmağı lüzumsuz sayıram.

Son vaxtlar həkim məsləhətlərinə diqqətlə qulaq asıram. Çünki yaş o yaş deyil. Bir vaxt saatlarla futbol oynayıb yorulmayan canım, indi nəyinsə arxasınca bərk qaçan kimi halım dəyişir. Yaxud sevdiyim xörəkdən bir az çox yeyən kimi gecə yata bilmirəm. Ona görə də imkan daxilində vaxtında və qədərində yeməyə çalışıram. Əvvəllər dan yeri qızarana kimi yata bilmir, televizora baxır, yazı yazır, yaxud kitab oxuyurdum. Amma indi yemək yeyir, xəbərlər proqramına baxır, 10-15 dəqiqə söhbət edirəm və əsnəmə tutur məni.

Deməli, yatmalıyam. Dostlarım deyir ki, biz axşam 11-in yarısından sonra sənə zəng etmirik, çünki yatmış olursan. Əlbəttə, bu sözlərdə bir qədər zarafat var, ancaq həqiqət tərəfi daha ağırdır. O da var ki, indi gecələr cəmisi 2-3 saat yatıram və ayılandan sonra səhərə qədər çimir eləyə bilmirəm. Yəqin ki, bu, çoxlarına tanış mərəzdir. Çünki insan yaşa dolandan sonra hər şeyə həssas olur və bu, bir çox xəstəliklərin yaranması üçün şərait yaradır. Buna görə də gərək özünü qorumağa çalışasan.

Yeri gəlmişkən, bir neçə gün əvvəl televizorda türk professor Şenel Yediyıldızla maraqlı bir müsahibəyə baxdım. Söhbətdə Şenel bəy dövrün geniş yayılmış bəlalarından olan infarktın başvermə səbəbləri barədə ətraflı və gərəkli məlumatlar verdi. Onun sözlərinə görə, əgər insanlar güclü yeməklər yeyir və çox vaxt hərəkətsiz yaşayırlarsa, infarktolma ehtimalı da artır. Ona görə də, təbiri-caizsə, çox yeməyə meyilli, hərəkətsiz adamlar gün ərzində, azı, üç-beş kilometr gəzib-dolanmalıdırlar.

Professorun dediklərinə sözüm yoxdur. Amma infarkt olmamaq yalnız adamın özündən asılı deyil. İndi bu böyük şəhərdə yaşayan hər bir soydaşımızın infarktolma riski böyükdür. Tutaq ki, sən hansı sənəd üçünsə müvafiq idarəyə gedirsən, təsadüfi hal ola bilər ki, nədənsə əsəbiləşib geri qayıtmayasan. Necə də əsəbləşməyəsən? Məsələn, canın ağrıyır, gedirsən həkimə və durursan növbəyə. Həkim bir-iki nəfəri qəbul eləyir və birdən telefonu zəng çalır. O da telefonu götürüb zəng çalanla, nə az-nə çox, yarım saat danışır. Xəstə də əsəbi halda oturub telefon söhbətinin sonunu gözləyir.

Həkim xəstəni başından eləyib yola salan kimi tibb bacısı tanışlarından birini onun yanına salır ki, bu, mənim qohumumdur, tez müayinə elə, tələsirlər. Amma bayaq dəhlizdə pıçıldaşma zamanı gözünlə görmüsən ki, xəstənin adamı bu tibb bacısının cibinə əlini saldı ki, onları növbəsiz həkimin yanına salsın. Bir az da səbrini basıb dayanırsan. Növbəsiz girən xəstə çıxandan az sonra həkim baş həkimin yanına gedir. Gözlə ha gözlə, axır ki, qayıdır. Növbədə duran xəstələrdən daha iki nəfəri müayinədən keçib gedir. Nahar fasiləsinə az qalmış tibb bacısı elan edir ki, həkim nahara gedir, fasilədən sonra gəlin... Di gəl infarkt olma!

Yaxud Gəncəyə getməlisən. Avtovağzalda tələsik minirsən avtobusa ki, istədiyin vaxtda ora çatasan. Sürücü də onların jarqonu ilə desək, arxadakı həmkarını “dartır”, yəni hərəkət cədvəlinə əməl etmir və istəyir ki, avtobus tam dolsun. Buna görə də avtovağzaldan çıxana kimi 20 dəqiqə keçir. Qalırsan içində qırıla-qırıla. Az getmiş Lökbatan dairəsində saxlayıb sərnişin soraqlayır. Avtobusdakıların haray-həşirinə əhəmiyyət vermir. İndi gəl infarkt olma!

Nəvəni uşaq bağçasına düzəltmək istəyirsən. Müdirin yanına girməmiş lövhədəki elanda oxuyursan ki, bağçada boş yer yoxdur. Buna baxmayaraq, müdirə xanımın yanına girib xahiş edirsən ki, bəlkə, kömək edəsən. Sənə bir dil tökür ki... Deyir ki, bizi tez-tez yoxlayırlar, bir nəfər artıq uşaq olsa, cərimələyirlər, töhmət verirlər və sair. Əlin ətəyindən uzun qayıdırsan geri. İki-üç gün sonra gəlin deyir ki, müdirə xanım qonşu Ağabala kişidən 200 manat “şirinlik” alıb 2 nəvəsini də bağçaya götürüb. Bu sözləri eşidəndən sonra gəl infarkt olma!

Yaxud səhər işə çatandan sonra saytlardan birinin xəbərlərini oxumağa başlayırsan ki, görüm bu gözəlim vətəndə nələr baş verir? Elə ilk xəbərdə oxuyursan ki, özünü ağıllı sayan bir cavan trol siyasətçi hörmətli bir ziyalının ünvanına, arkadaşlarımız demiş, elə çamır atıb ki, o dəqiqə əsəblərin yerindən oynayır. Belə üzü yanından qırmızının sözlərindən dilxor olursan. Sən də ağzına gələni mızıldaya-mızıldaya onun ünvanına göndərirsən. Başqa xəbərin başlığı isə belədir: “19 yaşlı gəlin yataqda başqası ilə tutuldu”. Belə və buna bənzər xəbərləri oxuduqca hövsələn daralır.

Sözün qısası, indi bazara, toya, yasa, daha nə bilim hara getsən, gərək özünü infarktdan qoruyasan. Qısası, professor Şenel Yediyıldızın sözlərinə əməl etmək üçün gərək bu şəhərdən çıxıb gedəsən. Bəs hara?

***Səməd MƏLİKZADƏ***

# Dil + qaraciyər = vitamin deposu

**Rusiyanın keyfiyyətə nəzarət qurumu – “Rospotrebnadzor” əhalini mal dili və qaraciyəri yeməyə çağırıb. Qurumun əməkdaşları bu ət məhsullarının insan orqanizmi üçün daha vitaminli olduğunu bildirib və onu superqida adlandırıblar.**



Mütəxəssislər bildiriblər ki, qaraciyər qırmızı ətdən daha dadlı və faydalıdır. Onun güclü aminturşu tərkibi əzələ kütləsinin və qanın artmasına səbəb olur.

Dil ətində isə zülal, protein, yağlar, B qrup vitaminləri boldur.

Mal ürəyində 6 dəfə çox B qrup vitamini, eyni zamanda, dəmir var.

Eləcə də toyuq qaraciyəri və ürəyində A, E, PP və B vitaminləri çoxdur.

Aşkar edilib ki, superqidalar içində ilk yerlərdə malın dili, qaraciyəri, ürəyi, böyrəyi dayanır. Bunlardan sonra heyvanın başı, ayaqları, quyruğu gəlir.

Keyfiyyətə nəzarət qurumunun əməkdaşları onu da xatırladıblar ki, bu qidalar çox yağlı olduğu üçün ürək-damar problemi və xolesterini yüksək olan şəxslərə olmaz. Eyni zamanda, həmin delikates qidalar düzgün bişirilməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***



# Aranda yağmursuz, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 8-11°, gündüz 15-19° isti olacaq.**

Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 15-20° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

# Füzulidə Kurmanqazı Mərkəzinin çal-çağırı artır

**Füzuli şəhərində inşa edilən və Qazax xalqının hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində şagirdlərin sayı artaraq 150-yə çatıb.**



Bu il martın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə istifadəyə verilən Yaradıcılıq Mərkəzi 2024/2025-ci tədris ilindən qapılarını müəllim və şagirdlərin üzünə açıb.

Bu mərkəz işğaldan azad edilən ərazilərdə incəsənət təhsilinin başladığı ilk tədris ocağı kimi xüsusi əhəmiyyət daşıyır. Mərkəz mart ayında 25 şagird və 5 müəllimlə fəaliyyətə başlamışdısa, hazırda şagirdlərin sayı 150-yə, müəllimlərin sayı isə 10-a çatır. Burada uşaqların incəsənətin sirlərinə yiyələnməsi üçün lazımi şərait yaradılıb. Hazırda fortepiano, qanun, qarmon, tar, violin, rəqs, xalçaçılıq, muğam ifaçılığı və digər ixtisaslar üzrə tədris həyata keçirilir.

Qeyd edək ki, hazırda Füzuli şəhərində 822 ailə olmaqla, 3 min 132 nəfərin məskunlaşması təmin edilib.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## İdman xəbərləri

# Dünya çempionatı – 2 medal

**Albaniyanın paytaxtı Tiranada güləş üzrə U-23 dünya çempionatı davam edir.**



Azərbaycan Güləş Federasiyasından (AGF) verilən məlumata görə, mundialda yunan-Roma güləşi üzrə son 5 çəkidə qaliblər müəyyənləşib.

Rəşad Məmmədov (55 kiloqram) amerikalı Villiam Sallivana (12:4), kolumbiyalı Xristafor Aquilara (9:0) və yaponiyalı Kohey Yamaqivaya (12:2) tam üstünlüklə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə iranlı Əli Əhmədiyə 3:11 hesabı ilə məğlub olan Rəşad dünya çempionatını gümüş medalla başa vurub.

Ziya Babaşov (63 kiloqram) üçün 1/8 finalda polşalı Mairbek Salimov keçilməz olub – 0:8.

Xasay Həsənli (77 kiloqram) ermənistanlı Matrik Petrosyana xalların keyfiyyətinə görə (2:2) qalib gəlsə də, 1/8 finalda almaniyalı Samuel Bellşeidtə 0:5 hesabı ilə məğlub olub. Həsənli təsəlliverici görüşlərdə belçikalı İbrahim Tabayevlə (3:2) rusiyalı İsmail Baraxoyevdən (5:3) güclü olub. Gürcüstanlı Temuri Orjonikidze üzərində də inamlı qələbə (7:1) qazanan Xasay bürünc medalı boynundan asıb.

# BOK nümayəndəsi Azərbaycanda

**Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Təhlükəsiz İdman üzrə məsləhətçisi Tiene Vertommen Azərbaycanda səfərdədir.**



Milli Olimpiya Komitəsindən (MOK) verilən məlumata görə, qonaq səfərin ikinci günündə UNICEF nümayəndələri ilə bir araya gələrək, idmanda uşaqların və yeniyetmələrin təhlükəsizliyi mövzusunda müzakirələr aparıb. Görüşdə UNICEF-dən uşaq müdafiəsi mütəxəssisi Vüqar Salmanov və yeniyetmə inkişaf üzrə mütəxəssisi Nigar Nəsrullayeva, MOK-un setifikatlaşdırılmış mütəxəssisi Vaqif Əliyev, beynəlxalq proqramlar şöbəsinin əməkdaşı Ceyhun Rəhmənov, Beynəlxalq Olimpiya proqramları idarəsinin aparıcı məsləhətçisi Lalə Hüseynova və “Təhlükəsiz idman” üzrə işçi heyətinin üzvü Ayan Xankişiyeva Tiene Vertommenlə fikir mübadiləsi aparıblar.

Tədbirdə paytaxt və regionlarda təhlükəsiz idmanın təbliği üzrə keçirilən maarifləndirici tədbirlərdən danışılıb.

***Leyla QURBANOVA***
***XQ***

# Şəkidə 9 min ağac əkilib



**“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Şəki rayonunda ağacəkmə aksiyaları davam etdirilir. İndiyədək keçirilən iməciliklərdə rayon ərazisindən keçən magistral avtomobil yollarının kənarlarında 9 mindən çox həmişəyaşıl ağac əkilib. Yeni əkilən ağaclara aqrotexniki qaydada qulluq göstərilib.**

Bu barədə mətbuata Şəki Şəhər İcra Hakimiyyətindən məlumat verilib.

“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində rayon ərazisində, ümumilikdə, 11 min 500 ədəd həmişəyaşıl ağacın əkilməsi nəzərdə tutulur.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00